QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 221 (8814) CÜMƏ AXŞAMI, 14 oktyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevdən erməni saxtakarlığına sarsıdıcı zərbə

**Vətən müharibəsindəki qələbəmiz tariximizə yeni əlamətdar günlər qazandırdı. Əgər qələbəyə qədər hər il ayrı-ayrı rayonlarımızın işğalının ildönümünü kədərlə xatırlayırdıqsa, bu hüznlü yaddaşın unudulmaması üçün onun ağrı-acılarını gənc nəsillə bölüşürdüksə, artıq indi doğma yurdlarımızın qurtuluş günlərini bayram edirik. Bir-birimizlə sevincimizi, fərəhimizi paylaşırıq. Həmin gənc nəsil Azərbaycan Ordusunun Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızı işğaldan qurtardı. Azadlıq ildönümlərini tarixə yazdı.**

Azərbaycan 44 günlük Vətən müharibəsi ilə dünyanın hərb tarixini də dəyişdi. Bütün bəşəriyyətə göstərdi ki, artıq sülh barədə daha ciddi düşünmək zamanıdır. Müharibələrə səbəb olan mənasız ideyaları aradan qaldırmaq gərəkdir. Toplumları faşizm mahiyyətli ideologiyalardan çəkindirmək vaxtıdır. Ona görə ki, indiki müasir silahlarla uzunmüddətli müharibələr aparılsa, bu müharibələrin miqyası və nəticələri dəhşətli olar. Azərbaycanın Vətən müharibəsində nümayiş etdirdiyi mükəmməl döyüş taktikası, hərbi gücü, tətbiq etdiyi innovativ silahlar düşmənin gözünü qorxutdu, onu təslimçi sülhə, faktiki olaraq kapitulyasiya aktına imza atmağa məcbur etdi, dünyaya böyük bir həqiqəti anlatdı.

*Ardı 4-cü səh.*

## Bakı şəhərinin Səbail rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Bakı şəhəri Səbail rayonunun Badamdar və Bibiheybət qəsəbələri ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə “Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 2,6 milyon (iki milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 oktyabr 2021-ci il*



## *İlham ƏLİYEV:* “Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm”

### Prezident İtaliyanın “La Repubblica” qəzetinə müsahibə verib

**Oktyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İtaliyanın “La Repubblica” qəzetinə müsahibə verib. Müsahibənin tam mətnini təqdim edirik.**

**Prezident İlham ƏLİYEV:**
- Sabahınız xeyir.

**Müxbir:**
- Sabahınız xeyir, cənab Prezident, necəsiniz?

**Prezident İlham ƏLİYEV:**
- Təşəkkür edirəm, yaxşıyam. Sizi yenidən görməyimə şadam.

**- Mən də Sizi görməyimə şadam. Ermənistanla münaqişə mövzusundan başlamaq istəyirəm. Rusiyanın sülhməramlı vasitəçiliyindən razısınızmı?**

*Ardı 2-ci səh.*

## Kapital sabitliyi sevir

### 8 ayda ölkə üzrə əsas kapitala 8,2 milyard manatdan çox vəsait qoyulub

İki ilə yaxındır ki, dünya iqtisadiyyatı koronavirus pandemiyasının törətdiyi fəsadlardan ciddi zərbələr alır. Ticarət əlaqələrinin minimuma enməsi, istehsalın aşağı düşməsi, iqtisadiyyata investisiyaların qoyulmasının azalması ilə müşahidə olunan bu proses son vaxtlar zəifləsə də, hələ onun tam aradan götürülməsindən danışmaq tezdir. Başqa sözlə, COVID-19 nə qədər ki dünyanın ətəyindən əl çəkməyib, onun fəsadları da müxtəlif səviyyələrdə qalmaqdadır.

Azərbaycan da qlobal dünyanın bir parçasıdır. Bu üzdən sözsüz ki, Azərbaycan iqtisadiyyatı da pandemiyanın sərt qadağalarından müəyyən qədər ziyan çəkir. Lakin dünyada baş verən hadisələrə çevik reaksiya verilməsi və önləyici tədbirlər sayəsində Azərbaycan dünyada pandemiyadan ən az iqtisadi itkilərə məruz qalan ölkələr sırasında yer almağa müvəffəq olub. Bunu statistik rəqəmlər də təsdiqləyir.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, cari ilin yanvar-avqust aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən istehsal olunan malların və göstərilən xidmətlərin dəyəri 2,6 faiz artaraq 32,1 milyard manat təşkil edib. Bu dövrdə sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 18,4 faiz artıb.

Son məlumata görə, sənayedə qeyri-dövlət sektorunun payı 81,3 faizdir. Hesabat dövründə ümumi istehsalın 91,1 faizi sənaye məhsullarının istehsalı, 8,9 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb.

*Ardı 7-ci səh.*



## TAP - ilin təbii qaz layihəsi

### Kəmərin perspektivləri daha böyükdür

**Trans-Adriatik Qaz Boru Kəməri (TAP) istifadəyə veriləndən indiyədək Avropaya 5 milyard kubmetrədək Azərbaycan təbii qazı nəql edib. “Cənub qaz dəhlizi”nin sonuncu seqmenti olan, ölkəmizdən Avropa bazarlarına ildə 10 milyard kubmetr qaz tədarükünü həyata keçirəcəyi nəzərdə tutulan bu kəmər fəaliyyətini ahəngdar davam etdirərək yeni uğurlara imza atır.**

TAP-ın keçən ay Dubayda keçirilən “Gastech Awards 2021” mərasimində “İlin təbii qaz, LNG və ya hidrogen layihəsi” kateqoriyasında qalib elan olunması da təsadüfi deyil. Qeyd edək ki, hər il keçirilən qlobal “Gastech” konfransı ərəfəsində təşkil edilən “Gastech Awards” mükafatları şirkətlərin və təşkilatların təbii qaz sektorundakı üstün nailiyyətlərinə görə təqdim olunur.

TAP-ın səhmdarları layihənin inkişafı və tikintisi haqqında 2013-cü ilin sonunda qərar veriblər. Seçim prosesində o, səkkiz şərtə görə üstünlük qazanıb.

*Ardı 3-cü səh.*

## Koronavirusdan yeganə qorunma vasitəsi peyvənddir

### Mütəxəssislərin fikrincə, üçüncü dozaya ehtiyac var

**Qlobal pandemiya elan olunmuş yeni növ koronavirus iki ilə yaxındır ki, bütün dünyada ağır fəsadlar törətməkdədir.**

Hər gün neçə-neçə insan bu təhlükəli virus səbəbindən sağlamlığını, hətta həyatını itirir. Pandemiyanın nə zaman sona çatacağı hazırda bütün dünyada hər kəsi düşündürən ən vacib məsələlərdən biridir.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş elmi işçisi Sumya Svaminatan İsveçrənin “SonntagsBlick” qəzetinə verdiyi müsahibəsində deyib ki, bəşəriyyət tezliklə COVID-19 ilə mübarizədə yolun 60 faizini keçəcək, amma qarşıda hələ də gözlənilməz maneələrlə qarşılaşa bilərik, ona görə də pandemiyanın bitəcəyi müddəti proqnozlaşdırmaq hələ tezdir.

*Ardı 6-cı səh.*

Əvvəli 1-ci səh.

- Bəli, ümumilikdə biz bundan məmnunuq. Təqribən bir ildir ki, müharibə başa çatıb və Rusiya sülhməramlıları Azərbaycanda, bizim Qarabağ bölgəsində yerləşib. Bu müddət ərzində bəzi xırda insidentlər istisna olmaqla vəziyyət sabitdir və ümumən, biz bundan razıyıq. Əlbəttə, həllini gözləyən müəyyən məsələlər qalmaqdadır. Xüsusən də hazırda Rusiya sülhməramlılarının məsuliyyət zonasında olan ərazilərimizə səfər etmək üçün Azərbaycandan icazə almalı olan əcnəbilər məsələsi var. Qarabağa səfər edən dırnaqarası turistlərin sayı kəskin şəkildə azalsa da, bəzi əcnəbilər hələ də bizim ərazimizə, Rusiya sülhməramlılarının olduğu yerlərə qanunsuz daxil olurlar. Bu məsələ Rusiyanın səlahiyyətli orqanlarının, Müdafiə Nazirliyinin diqqətinə çatdırılıb ki, buna son qoyulsun. Bu və bəzi digər məsələlər öz həllini tapmalıdır. Ancaq hazırda biz onların fəaliyyətindən ümumilikdə razıyıq.

**- Aydındır. Bakı azad olunmuş ərazilərə sərmayə qoyacaqmı?**

- Biz artıq sərmayə yatırırıq. Azad edilmiş ərazilərlə bağlı xüsusi investisiya proqramı qəbul edilib. Cari il üçün nəzərdə tutulmuş məbləğ təqribən 1.3 milyard ABŞ dolları təşkil edir. Sərmayə qoyuluşu, əsasən, infrastruktur layihələrinədir. Bu ilin sonunadək sahəsi 10 min kvadratkilometrə bərabər olan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təminatı tam başa çatacaq.

Hazırda biz avtomobil və dəmir yolları inşa edirik. Azad olunmuş ərazilərdə, Füzulidə yerləşən yeni hava limanı hazırdır. Artıq ilk təyyarələri qəbul edib. Biz onu səkkiz aya inşa etmişik. Daha iki hava limanının inşası davam edir. Bununla yanaşı, biz artıq yaşayış binalarının tikintisi layihələrinə başlamışıq. İki şəhərin baş planı təsdiq edilib və işlərə start verilib. Yəni biz işlərə çox fəal başlamışıq və planımız keçmiş məcburi köçkünlərin doğma evlərinə ən qısa zamanda qaytarılmasıdır.

**- İtaliyanın yenidənqurma işlərinə cəlb edilməsi nəzərdə tutulurmu və ya İtaliya artıq bu işlərdə iştirak edirmi?**

- İtaliya bu işlərə cəlb edilən ilk ölkələrdəndir. İlk ölkə Türkiyədir, ikincisi isə İtaliyadır. Bu, təsadüfi deyil. Bu, bizim seçimimiz idi. Mən demişdim ki, biz Böyük Qayıdışla bağlı yenidənqurma layihələrinə yalnız dost ölkələrdən olan şirkətləri dəvət edəcəyik. Bir neçə italyan şirkəti artıq müxtəlif layihələrdə, o cümlədən zəfər muzeylərinin, memorial muzeylərin və işğal muzeylərinin yaradılmasında iştirak edir. Artıq bir italyan şirkəti bir bölgənin enerji təminatı məsələsi ilə bağlı bizimlə müqavilə imzalayıb. Bundan əlavə, digər italyan şirkəti kənd təsərrüfatı məhsullarının istehsalına sərmayə yatırmağa başlayıb. Beləliklə, italyan şirkətlərinin Azərbaycanda fəaliyyəti alqışlanılır və bu yenidənqurma işlərində daha çox italyan şirkətləri olacaq.

**- Bildiyiniz kimi, Avropada qazın qiymətində ciddi artım var. Trans-Adriatik qaz kəmərinin qiymətin müəyyən dərəcədə aşağı səviyyədə saxlanılmasında rolu ola bilər. Həmin boru xətti ilə bağlı hansı yeni imkanlar var?**



# İlham ƏLİYEV: "Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm"

- Biz, əsasən, diqqətimizi "Cənub qaz dəhlizi"nin sonuncu hissəsi olan Trans-Adriatik boru xəttinin başa çatdırılmasına yönəltmişdik. Ötən ilin sonuncu günü - dekabrın 31-də ilk qaz Avropaya nəql edilməyə başlandı və İtaliya artıq Azərbaycandan qaz qəbul etməyə başladı. Bildiyiniz kimi, "Cənub qaz dəhlizi" İtaliya bazarını 8 milyard kubmetr və hətta bundan da artıq həcmdə qazla təmin edəcək. Yəni bu iş artıq başa çatdırılıb. İndi isə biz gələcəyə baxmalıyıq, çünki biz yeni qaz yataqları kəşf etmişik. Bununla yanaşı, mövcud yataqlardan da daha çox qaz hasil etməyi planlaşdırırıq. Həmçinin xarici investorlarla bərabər yenilənən enerji mənbələrinə böyük sərmayə qoyuruq.

**- Gəlin Əfqanıstan haqqında danışaq. Siz Taliban hökumətini tanımağa hazırsınızmı?**

- Biz hazırda hər hansı bir addımın atılması mərhələsində deyilik. Azərbaycan bilavasitə Əfqanıstana yaxın coğrafiyada yerləşmir. Hesab edirəm ki, ilk olaraq bu qərarı Əfqanıstanın qonşuları verməlidir. Biz heç vaxt nə siyasi, nə iqtisadi, nə də ki nəqliyyat sahəsi baxımından Əfqanıstanla sıx bağlı olmamışıq. Bizim Əfqanıstanda mövcudluğumuz orada sülhməramlı əməliyyatlarda iştirakla məhdudlaşıb. Yeri gəlmişkən, Azərbaycan hərbçiləri Kabil Hava Limanını sonuncu tərk edənlər sırasında olublar. Hərbçilərimiz hava limanını orada baş verən partlayışdan bir gün əvvəl tərk ediblər. Yəni biz missiyamızı sonuncu günədək ləyaqətlə və maksimum səmərəli dərəcədə icra edirdik. Hazırda Əfqanıstanda yeni hökumətin qurulması və xarici siyasət prioritetlərinin müəyyən edilməsi dövrüdür. Müsbət meyil, müsbət yanaşma və potensial əməkdaşlıq əlamətləri gördüyümüz halda biz, əlbəttə ki, adekvat şəkildə cavab verəcəyik. Azərbaycanın xarici siyasətinin başlıca prinsipi müstəqillikdir. Xarici siyasətimiz tamamilə hər hansı xarici hökmranlıqdan azaddır. İkincisi isə praqmatiklikdir. Biz mövqeyimizi məhz bunun əsasında formalaşdırırıq.

**- Avropanın Cənubi Qafqazda daha geniş iştirakı müsbət hal ola bilərmi?**

- Hazırda bu məsələlər geniş şəkildə müzakirə edilir. Avropa İttifaqı Şurasının prezidenti cənab Şarl Mişelin bu yay Azərbaycana səfəri zamanı biz Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının geniş gündəliyi ilə bağlı ətraflı müzakirələr apardıq. Əlbəttə, əməkdaşlığımızın enerji kimi ənənəvi sahələri var ki, buradakı nəhəng layihələrin icrasını yalnız alqışlamaq olar.

Bu gün Avropa İttifaqı bizim nəqliyyat potensialımıza böyük maraq göstərir və bu sahədə fəal iştirak edir. Çünki biz Azərbaycanı Avrasiyanın müasir infrastruktura və qonşularla şaxələndirilmiş kommunikasiya marşrutlarına malik mühüm nəqliyyat mərkəzinə çeviririk. Avropa İttifaqı bu prosesin bir hissəsi olmağı planlaşdırır. Biz həmçinin Cənubi Qafqazda postmüharibə dövrünün inkişafında da Avropa İttifaqının rolunu müzakirə edirik.

**- İranla bağlı nələr baş verir?**

- Ümumilikdə? Yoxsa ikitərəfli münasibətlərimizi nəzərdə tutursunuz?

**- Bəli. Müəyyən narahatlıq, müəyyən problemlər var. Bununla bağlı nə etməyi planlaşdırırsınız? Belə başa düşürəm ki, Sizin İsrail ilə yaxın olmağınızdan onlar o qədər də məmnun deyillər. Belədirmi?**

- Bilirsiniz, bu bəhanədir. Baş verənlərin səbəbi bizim bəzi digər ölkələrlə olan münasibətimiz deyil, çünki xarici siyasətimiz çox açıqdır, şəffafdır, sabit və dediyim kimi, müstəqildir. Heç bir digər ölkə Azərbaycanın qərarlarına təsir edə bilməz və ya buna çalışmalı deyil. Qərarlar burada - Bakıda Azərbaycanın milli maraqları əsasında mənim tərəfimdən verilir. Əgər kimsə süni bəhanədən istifadə etməyə çalışaraq Azərbaycanı digər ölkə ilə münasibətlərinin olmasında günahlandırıbsa, bu cəhdlər boş çıxıb. Bu, düzgün yol deyil və gətirib dalana çıxaracaq.

Baş verənlərin səbəbi çox sadədir. Azərbaycan öz sərhədlərinə hörmətlə yanaşılmasını istəyir. Qarabağın azad edilməsindən sonra biz Ermənistanla öz sərhədimizə çıxdıq. Biz öz sərhədimizə gəlib, orada yerləşdik. Ermənistanın bəzi şəhərləri arasındakı yol Azərbaycanın ərazisindən keçir. Bu yoldan Qarabağa, bizim ərazimizə malların qeyri-qanuni daşınmasında istifadə olunduğunu görməyə başladıq. Bu, qəbuledilməzdir. Biz öz sərhədlərimizə hörmətlə yanaşılmasını tələb edirik. Biz hər hansı digər ölkənin sərhədini qeyri-qanuni olaraq pozmuruq. Beləliklə, mesajımız çox sadə idi - dayandırın bunu! Biz ictimaiyyətə açıqlamadan çox dostcasına bildirdik ki, bunu dayandırsınlar. Çünki bu, düzgün deyil. Biz həmin yollara nəzarət edirik və görürük ki, aldatmağın, "bunun baş vermədiyini" söyləməyin yeri yoxdur. Əfsuslar olsun ki, bu xəbərdarlığa adekvat cavab verilmədi. Sonra biz ikinci addımı atmalı olduq. Biz diplomatik nota hazırladıq, səfiri dəvət etdik və bunu ictimaiyyətə açıqladıq ki, bunu dayandıraq. Amma, əslində, bu, daha pis forma aldı, İrandan Qarabağa gedən yük maşınlarının sayı artdı. Bu addımı biz zərbə, bilərəkdən hörmətsizlik kimi saydıq. Sonra biz tamamilə qanuni hesab edilən başqa tədbirləri gördük və bu, qonşu ölkədə böyük qarışıqlığa, lazımsız hərəkətlərə səbəb oldu. Yersiz bəyanatlar verildi, hədələr edildi, sərhədimizə yaxın hərbi təlimlər keçirildi. Müəmmalı idi ki, ilk dəfə hərbi təlimlərin planlı tədbir olduğu deyildi. Sonra isə deyildi ki, bizə nəyi isə nümayiş etdirmək üçün edildi. Heç kəs öz iradəsini bizim üzərimizə qoya bilməz. Biz bütün ölkələrlə və ilk növbədə, qonşularımızla dost münasibətlərə malik olmaq istəyirik. Bir çox hallarda mən Azərbaycanın xarici siyasət prioritetləri haqqında danışanda, - əslində, bunların hamısı çap edilib, - demişəm ki, bizim prioritetimiz qonşu ölkələrlə münasibətlərdir. Səkkiz il ərzində işlədiyimiz əvvəlki İran hökuməti ilə biz münasibətlərimizi ən yüksək mümkün səviyyəyə qaldıra bildik. Mənim həmkarım cənab Həsən Ruhani ilə ondan artıq görüşüm olub. Bütün həmin görüşlər məhsuldar olub. Biz enerji, nəqliyyat, mədəni inkişaf, təhlükəsizlik sahələrində bir çox sazişləri imzalamışıq və icra etmişik. Münasibətlərimiz, əslində, dostluq və yaxşı qonşuluq rəmzinə çevrilmişdir. İranın yeni hökuməti, yeni Prezidenti seçiləndə biz nə etdik? Biz onun inauqurasiyasına parlament Sədrinin və Baş nazirin müavininin rəhbərliyi ilə böyük nümayəndə heyətini göndərdik. Onlar mənim dostluq mesajımı birbaşa İran Prezidentinə çatdırdılar. Eyni zamanda digər çatdırılan mesaj və mən bunu xüsusi olaraq əvvəlcə bildirdim, belə idi: "Xahiş edirik, Qarabağda İran biznesmenləri tərəfindən aparılan qeyri-qanuni biznes fəaliyyətinə diqqət yetirin". Biz İran hökumətini ittiham etmək mövqeyində deyildik. Biz anladıq ki, bunu bəzi özəl şirkətlər edir. Lakin biz bunun dayandırılmasını xahiş etdik. Cavab olaraq nə baş verdiyini hər kəs görür. Nəticədə nəyə nail olduq? Bir daha söyləyim ki, heç bir yaxşı şey baş vermədi. Buna görə biz, ilk növbədə, İsrailin azad olunmuş torpaqlara gətirilməsi ilə bağlı Azərbaycana yönələn bütün ittihamları rədd edirik. Bu, tamamilə cəfəngiyyatdır. Bu, sadəcə, Azərbaycanı qaralamaq məqsədilə daxili auditoriyaya yönəlmiş bəhanədir. Hər kəs gedib görə bilər ki, orada heç həyat yoxdur. Hər bir şey dağıdılıb. İkincisi isə biz digərlərinə etdiyimiz hörmətin özümüzə də olmasını tələb edirik.

**- Sağ olun. Yalnız sonuncu sual. Üzr istəyirəm, "Pandora sənədləri"ni Sizdən soruşmaya bilmərəm. Bildiyiniz kimi, adınız orada çıxıb. Siz müdafiə olaraq "Pandora sənədləri" haqqında nə deyərdiniz?**

- Bilirsiniz, bu cür məsələlər məni çox illərdir müşayiət edir. Siyasi konyunkturadan asılı olaraq Qərbdə bəzi qüvvələr vaxtaşırı Azərbaycanı gözdən salmaq, onun mövqeyini zəiflətmək üçün bu cür iftiralardan və böhtanlardan istifadə etməyə çalışırlar. Aydındır ki, bu, jurnalist araşdırması deyil. Məlumdur ki, bunun arxasında kim dayanır. Aydındır ki, nəyə görə Azərbaycanın da adı çıxır. Mən başqaları haqqında bilmirəm. Ola bilsin, bəlkə onlar da elə bir şey ediblər ki, Qərbdə bəzi qüvvələrin xoşuna gəlməyib. Lakin Azərbaycana gəldikdə, əlbəttə ki, İkinci Qarabağ müharibəsində Qələbə bir çoxları üçün sürpriz oldu. Bu, onların xoşuna gəlmədi. Onlar Azərbaycanı zəif, asılı, işğal altında olan və hər zaman münaqişənin həlli üçün yardım istəyən ölkə kimi görmək istəyirlər. İndi isə bir halda ki, Azərbaycan bunu özü etdi və Ermənistanı məğlub etdi, Ermənistana sıx bağlılığı olan Qərbdəki həmin dairələr yenə böyük fəallığa keçiblər. Biz bunu gözləyirdik. Əslində, biz bilirdik ki, Azərbaycana qarşı yeni qarayaxma kampaniyası planlaşdırılır.

Mətləbə gəldikdə, bildirmək istərdim ki, mən on səkkiz ildir Prezidentəm. Mən bundan əvvəl sahibkar olmuşam, bizneslə məşğul olmuşam. Tərcümeyi-halım da məlumdur. Özü də uğurlu sahibkar olmuşam. Prezident seçiləndə mən kasıb insan deyildim. Prezident olduqdan sonra mən biznesdə birbaşa iştirakımı dayandırdım və biznesi öz ailəmə ötürdüm. Siz bəlkə məni başa düşərsiniz ki, bütün mirasını pişiklərə və itlərə qoyub gedən Qərbdəki digər insanlardan fərqli olaraq, İtaliya və Azərbaycanda biz ailə dəyərlərinə daha çox üstünlük veririk. Buna görə mən bütün biznesimi uşaqlarıma ötürdüm. Onlar isə səylər göstərib biznesi davam etdirirlər. Onların, əsasən, Azərbaycanda sərmayələri var. Onların Azərbaycandan kənarda sərmayələri var. Onların bütün biznes fəaliyyəti şəffafdır və beynəlxalq səviyyədə auditdən keçir və heç kəs burada bir şeyin səhv olması iddiası ilə çıxış edə bilməz.

Sənədlərdə nə yazılıbsa, səmimi desəm, mən onları oxumamışam. Mənə məlumat verildi və orada ola bilsin 5 faiz həqiqətdir. Qalanı isə yalandır. Amma bir daha bu haqda açıq söyləməyə qanuni haqqım var. Azərbaycanda sirr deyil ki, mənim qohumlarım və ailə üzvlərim biznesdə, xeyriyyəçilikdə və hazırda Qarabağda aparılan bir çox işlərdə iştirak edirlər. Məsələn, mənim yaratdığım Fond hazırda Qarabağda - Ağdamda, Şuşada və Zəngilanda bütün məscidlərin bərpasına sərmayə yatırır. Bu işlər fondun pulu hesabına maliyyələşdirilir. Biz qaçqınlar üçün evlərin tikintisini maliyyələşdirmişik. Beş mindən çox ailə üçün bu işi görmüşük. Biz Azərbaycanda çox işlər görürük. Əlbəttə ki, bunlar Qərbdə bəzi insanların xoşuna gəlmir. Onlar bizi ittiham etmək istəyirlər. İstəyirlər ki, biz onlara tabe olaq. Bizi iradələrinə tabe etdirmək istəyirlər. Mən isə deyirəm: "Yox! Mən Azərbaycanı, onun suverenliyini, müstəqilliyini, seçimini ömrümün sonuna qədər müdafiə edəcəyəm". Bütün həmin çirkin hekayələrin isə mənim və Azərbaycan xalqı üçün heç bir mənası yoxdur.

**- Cənab Prezident, çox sağ olun. Ümid edirəm, Sizinlə bir gün Bakıda görüşəcəyəm.**

---

# *Şeyxülislam Allahşükür PAŞAZADƏ:* "Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı vahid yoxdur"

"Dinlərarası dialoq qarşılıqlı anlaşmaya nail olmaq, ümdə problemlərin həlli naminə Allaha xoş gedən əməldir. Rus pravoslav kilsəsinə Moskvanın və bütün Rusiyanın patriarxı Zati-müqəddəsləri Kirilin şəxsində davamlı sülhün bərqərar olması naminə bu günədək davam edən dəyərli sülhyaratma səylərinə görə dərin minnətdarlığımı bildirirəm".

AZƏRTAC xəbər verir ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri, MDB Dinlərarası Şurasının sədri Şeyxülislam Allahşükür Paşazadə bu sözləri Rusiya, Azərbaycan və Ermənistanın dini liderlərinin üçtərəfli görüşündəki çıxışında söyləyib.

Şeyxülislam Allahşükür Paşazadə Patriarx Kirilə "sülhməramlı səylərinə, uzun illər boyu Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla və ədalətli həllinə sadiq olduğuna görə" təşəkkürünü bildirib.

Qafqaz müsəlmanlarının lideri deyib: "Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezident İlham Əliyevin rəhbərliyi ilə öz suveren hüquqları əsasında, BMT Nizamnaməsinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və digər beynəlxalq təşkilatların qərarlarına müvafiq olaraq özünün beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyünü bərpa edib. 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderlərinin iki ölkə arasında hərbi əməliyyatlara və silahlı münaqişəyə son qoymuş bəyanatı imzalanandan sonra yaranmış vəziyyət Cənubi Qafqazda yeni dövrün başlanması üçün imkan yaradır, bu bölgədə revanşist ritorikaya, qisas çağırışlarına, Ermənistan ilə Azərbaycan arasında düşmənçiliyə yer olmamalı, xalqlarımızın rifahı naminə əməkdaşlıq başlanmalıdır".

Şeyxülislam vurğulayıb ki, münaqişə başa çatıb və indi gələcək barədə, sülh barədə danışmaq, regionu sabit və təhlükəsiz etməyə çalışmaq vaxtıdır.

Allahşükür Paşazadə deyib: "Azərbaycanın siyasi və coğrafi xəritəsində "Dağlıq Qarabağ" adlı vahid yoxdur. Bu gün Xankəndidə və ona bitişik yaşayış məntəqələrində yaşayan ermənilər digər etnik qrupların nümayəndələri kimi Azərbaycan vətəndaşlarıdır və Azərbaycan qanunvericiliyinə riayət etməyə borcludurlar. Status məsələsinə gəldikdə isə, Azərbaycan üçün bu məsələ, xüsusən dinlərarası dialoq çərçivəsində müzakirə mövzusu deyil.

Erməni tərəfi tez-tez belə adlandırılan "hərbi əsirlər" məsələsini qaldırır. Qeyd etmək istəyirəm ki, müharibə dövründə əsir götürülmüş bütün hərbi əsirlər Ermənistana qaytarılıb. Hətta biz onları ermənilər bizim hərbi əsirləri qaytarandan əvvəl qaytarmışıq. Erməni tərəfin istinad etdiyi indiki vəziyyətə gəldikdə isə, noyabr Bəyanatı imzalanandan sonra Azərbaycan ərazisinə erməni təxribat



qrupu göndərilib, bu qrup dörd Azərbaycan hərbi qulluqçusunu qətlə yetirməklə cinayət törədib. Bütün beynəlxalq konvensiyalara müvafiq olaraq saxlanılmış bu şəxslər hərbi əsir hesab edilə bilməz".

Şeyxülislam qeyd edib ki, Azərbaycan Qafqazın bütün xalqlarının dinc yanaşı yaşamasına və mehriban qonşuluğuna şərait yaradan səyləri alqışlayır. Münaqişənin ağır nəticələri gələcək naminə barışıq yolunda maneə olmamalıdır.

A.Paşazadə deyib: "Lakin təəssüf ki, bizim günlərin reallığı belədir: bu gün də Azərbaycan torpaqlarında günahsız insanlar minaya düşərək həlak olur, çünki minalanmış sahələrin xəritələri hələ də bizim tərəfə tam həcmdə təqdim edilməyib.

Sülhün bərqərar olması üçün bütün səviyyələrdə, o cümlədən ictimai və dini səviyyədə də səylər davam etdirilməlidir. Azərbaycan dövləti dəfələrlə bəyan edib ki, Ermənistanla mehriban qonşuluq münasibətlərinə hazırdır və ölkənin dini ictimaiyyəti bu mövqeyi birmənalı olaraq dəstəkləyir. Azərbaycan işğaldan azad edilmiş ərazilərində bütün mədəni və dini abidələri mühafizə və bərpa etmək, etnik və dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara bərabər hüquq və azadlıqları təmin etmək əzmində olmasını ən yüksək səviyyədə bəyan edib".

Şeyxülislam Allahşükür Paşazadənin sözlərinə görə, dini liderlər dindən etnik-siyasi məqsədlər üçün istifadə edilməsinə yol verməməlidirlər. Dini lider deyib: "Hesab edirik ki, dini kürsüdən müharibəyə və nifrətə çağırışlarla çıxış etmək olmaz, çünki qanlı müharibə hər iki xalqa əvəzolunmaz bəlalar gətirib".

O vurğulayıb: "Erməni kilsəsinin barışmaz və siyasiləşdirilmiş mövqeyinə baxmayaraq, biz hesab edirik ki, problemin siyasi tərəfinə görə deyil, mənəvi tərəfinə görə məsuliyyət bizim - dini liderlərin üzərinə düşür. Buna görə də biz din xadimlərinin dövlətlərimizin liderlərinin siyasi qərarlarını şübhə altına almağa haqqımız yoxdur. Ulu Tanrı qarşısında bizim borcumuz bu həqiqəti xalqlarımıza, o cümlədən ölkələrimizin hüdudlarından kənarda yaşayan soydaşlarımıza çatdırmaqdır. Biz, dini liderlər dini etiqada və öz nüfuzumuza güvənərək dövlətlərimizin siyasi liderlərinin xalqlarımızın gələcəyi naminə sülh danışıqların reallaşmasına yönəlmiş səylərini dəstəkləməliyik".

Qafqaz Müsəlmanları İdarəsinin sədri əmin olduğunu bildirib ki, Patriarx Kirilin yüksək nüfuzu və qiymətli təcrübəsi bu gün xalqlarımızı və ölkələrimizi narahat edən ən mühüm problemlərin həlli üçün çox böyük əhəmiyyət kəsb edir.

Şeyxülislam Allahşükür Paşazadə deyib: "Əminəm ki, Sizinlə - dünyamiqyaslı dini lider, zəmanəmizin görkəmli din xadimi, bütün dünyada təkcə xristianların deyil, həm də müsəlmanların böyük hörmətini qazanmış dini liderlə birlikdə biz əməlisaleh ideyalarımızın həyata keçirilməsini davam etdirəcəyik".

# Milli Məclisin Sədri: "Tarix boyu Azərbaycanda qadınlar xüsusi diqqət və qayğı ilə əhatə olunublar"






Oktyabrın 13-də Rusiyanın Sankt-Peterburq şəhərində Üçüncü Avrasiya Qadın Forumunun plenar iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasda çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova forumda müzakirəyə təqdim olunan mövzuların qadınların müasir dünya proseslərində rolu ilə bağlı geniş fikir mübadiləsi aparmağa imkan verdiyini söyləyib.

Qeyd edib ki, qadınların bərabərliyi, ədaləti və tərəqqini təşviq etmək səyləri öz bəhrəsini verir və bu gün dünyanın bir çox ölkələrində qadınlar gələcəyə daha böyük inamla baxırlar.

Milli Məclisin Sədri vurğulayıb ki, müasir dünyada baş verən dəyişikliklər, sosial-iqtisadi inkişafın sabit və dinamik tendensiyaları cəmiyyətin sosial quruluşunda qadınların statusunun yeni məzmun qazanmasına səbəb olur. Bu gün qadınlar qlobal problemlərin qarşısının alınması, o cümlədən COVID-19 pandemiyasının nəticələrinin aradan qaldırılması, eləcə də bütün dünyada sülh, təhlükəsizlik və davamlı inkişaf uğrunda mübarizədə beynəlxalq səylərə əhəmiyyətli töhfə verirlər.

Çıxışında ölkəmizdə həyata keçirilən qadın siyasətinin tarixi və uğurları barədə məlumat verən S.Qafarova deyib ki, tarix boyu Azərbaycanda qadınlar hər zaman xüsusi diqqət və qayğı ilə əhatə olunublar. 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması azərbaycanlı qadınların cəmiyyətin fəal üzvünə çevrilməsi üçün geniş imkanlar açdı. O xüsusilə xatırladıb ki, həmin dövrdə müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycanda qadınlar kişilərlə bərabər seçmək və seçilmək hüququnu əldə ediblər.

Müasir dövrdə ölkəmizdə qadınlarla bağlı həyata keçirilən dövlət siyasətinin qayəsinin onların siyasi, sosial, iqtisadi və mədəni hüquqlarını həyata keçirmək, gender bərabərliyini təmin etmək, dövlət idarəçiliyində iştirakını genişləndirmək olduğunu bildirən S.Qafarova vurğulayıb ki, bu siyasətin əsasını Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyası müəyyən edir. 1998-ci ildə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılıb və sonradan bu qurum Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adlandırılıb. 2000-ci ildə ölkə Prezidenti Azərbaycanda yeni dövlət qadın siyasətinin həyata keçirilməsi ilə bağlı fərman imzalayıb. Həmin fərmanın məqsədi dövlət idarəçiliyində, biznesdə və iqtisadiyyatda qadınların bərabər təmsilçiliyini təmin etməkdir. Həmin il Azərbaycan Respublikasında qadın məsələləri üzrə 2000-2005-ci illər üçün Milli Fəaliyyət Planı qəbul edilib. Bu proqram Pekin platforması əsasında hazırlanıb. Bu sənəddə silahlı qarşıdurmalar mövzusuna xüsusi diqqət yetirilib. Artıq tarixə qovuşmuş Qarabağ münaqişəsinin son 30 ildə qadınlar da daxil olmaqla bir çox Azərbaycan vətəndaşının həyatına son qoyduğunu xatırladan Sahibə Qafarova əlavə edib ki, münaqişənin nəticələrinin yaratdığı problemlər, o cümlədən qaçqın və məcburi köçkünlərin üzləşdikləri çətinliklər qadınların da çiyinlərinə düşüb.

Ötən ilin noyabrında Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanatın keçmiş Qarabağ münaqişəsinə son nöqtəni qoyduğunu söyləyən Milli Məclisin Sədri deyib ki, 44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi qələbədən sonra Cənubi Qafqaz regionunda qadınlarımızın cəmiyyətin bütün sahələrinə daha fəal cəlb edilməsi üçün perspektivlər yaradan yeni reallıqlar ortaya çıxıb.

Sahibə Qafarova vurğulayıb ki, hazırda Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə görülən işlər qadınlarla bağlı dövlət siyasətinin bütün sahələrində əhəmiyyətli irəliləyişə səbəb olub. Ölkəmizdə aparılan sistemli islahatlar, regionların sosial-iqtisadi inkişafına yönəlmiş geniş dövlət proqramları qadınların həyatına müsbət təsir göstərir. Bu sahədə qəbul edilmiş qanunlar gender bərabərliyinin təmin edilməsi işinin daha da təkmilləşdirilməsinə imkan verir. O vurğulayıb ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva qadın hüquqlarının qorunması, qadınların dövlət və ictimai həyatda rolunun artırılması istiqamətində daha böyük uğurlar əldə olunmasına xüsusi töhfələr verir. Azərbaycanın Birinci vitse-prezidenti çoxşaxəli və uğurlu fəaliyyəti ilə qadınlarımızı öz potensiallarını daha böyük əzmlə reallaşdırmağa ruhlandırır.

Qadın hərəkatının inkişafı və qadın ictimai təşkilatları ilə dövlət strukturları arasında sosial tərəfdaşlığın gücləndirilməsi qadınların sosial müdafiəsinin möhkəmlənməsinə müsbət təsir göstərir. Milli Məclisin Sədri qeyd edib ki, qadınların potensiallarının bütünlüklə üzə çıxarılması, onların hüquq və imkanların genişləndirilməsi daha sağlam və firavan cəmiyyətlər qurulmasının zəruri şərtidir.

# Xarici işlər naziri Ceyhun Bayramov Minskə yola düşüb



Oktyabrın 13-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyəti Müstəqil Dövlətlər Birliyinin (MDB) Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak etmək məqsədilə Minsk şəhərinə yola düşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində nazir Ceyhun Bayramovun MDB XİNŞ-in növbəti iclasında iştirakı ilə yanaşı, ikitərəfli görüşlərinin keçirilməsi də nəzərdə tutulur.

# Milli Məclisdə Azərbaycan-Pakistan parlamentlərarası əlaqələrinin inkişaf perspektivləri müzakirə edilib



Oktyabrın 13-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov Pakistan İslam Respublikasının ölkəmizdəki səfiri Bilal Haye ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, Səməd Seyidov Azərbaycanla Pakistanı ortaq dəyərlər, qardaşlıq əlaqələri birləşdirdiyini və aramızdakı münasibətlərin strateji müttəfiqlik səviyyəsində olduğunu bildirib. Komitə sədri Azərbaycanın Pakistanla münasibətləri daha da inkişaf etdirməyə xüsusi önəm verdiyini vurğulayıb. O, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal altında saxlandığı dövrdə də, ölkəmizin ərazi bütövlüyünün bərpası ilə bağlı apardığı 44 günlük Vətən müharibəsində də Pakistanın haqq işimizi qətiyyətlə müdafiə etməsini, siyasi və mənəvi dəstək göstərməsini yüksək qiymətləndirib.

Görüşdə iki ölkə arasında münasibətlərin inkişafından məmnunluq ifadə olunub. Bildirilib ki, hökumətlərimiz və xalqlarımız arasında yaxın əlaqələrin mövcudluğu ali qanunvericilik orqanlarımızın münasibətlərində də öz əksini tapıb. Məhz bu münasibətlərin daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan, Türkiyə və Pakistanın parlament sədrlərinin birinci üçtərəfli görüşünün keçirilməsinin, üçtərəfli parlament əməkdaşlıq formatının təsis edilməsinin və Bakı Bəyannaməsinin imzalanmasının əhəmiyyəti xüsusi vurğulanıb.

Milli Məclisin komitə sədri müharibədən sonra regionda yaranan yeni reallıqlar, Azərbaycanın bölgə dövlətlərinə fayda verəcək iqtisadi əməkdaşlıq təklifləri və davamlı sülhün bərqərar edilməsi istiqamətində təşəbbüsləri barədə danışıb.

Səfir Bilal Haye Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsini, bölgədə yeni inkişaf imkanlarının yaranmasını alqışlayıb.

Görüşdə parlamentlərarası əlaqələrin inkişaf perspektivləri müzakirə olunub, müxtəlif platformalarda siyasi, iqtisadi, ticarət, mədəni əməkdaşlığın genişləndirilməsinin vacibliyi vurğulanıb.

# Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan münasibətlər müxtəlif sahələrdə inkişaf edir

Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti Üçüncü Avrasiya Qadın Forumunda iştirak etmək üçün Rusiya Federasiyasında səfərdədir. Səfər çərçivəsində oktyabrın 13-də Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Milli Məclisin Sədrini salamlayan Valentina Matviyenko Üçüncü Avrasiya Qadın Forumu və bu tədbir çərçivəsində müzakirə olunan məsələlərin əhəmiyyətindən danışıb. Bildirib ki, bu cür tədbirlər dünyada gedən proseslərdə qadınların yaxından iştirakı məsələlərinə dair geniş müzakirələr aparmağa şərait yaradır. Belə tədbirlərdə müxtəlif ölkələri təmsil edən qadın deputatların bir araya gəlməsi parlamentlərarası əlaqələrin və parlament diplomatiyasının inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. O, Azərbaycanla Rusiya arasında münasibətlərin inkişafından məmnunluğunu bildirərək, əlaqələrimizin hazırkı səviyyəyə çatmasında qanunverici orqanlar arasında münasibətlərin rolunu da qeyd edib.

Görüşdə Milli Məclisin Sədri Sahibə Qafarova Üçüncü Avrasiya Qadın Forumunun yüksək səviyyədə təşkil olunduğunu bildirib, belə forumları gender məsələlərini, həmçinin parlamentlərarası əməkdaşlığın perspektivlərini müzakirə etmək baxımından imkan kimi dəyərləndirib.

Söhbət zamanı Milli Məclisin Sədri Azərbaycan ilə Rusiya arasında strateji tərəfdaşlığa əsaslanan münasibətlərin müxtəlif sahələrdə inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin inkişafında iki ölkənin dövlət başçılarının rolunu xüsusi vurğulayıb, Prezident İlham Əliyevin və Prezident Vladimir Putinin mütəmadi rəsmi səfərlərinin ikitərəfli əlaqələrin inkişafında mühüm əhəmiyyətə malik olduğunu diqqətə çatdırıb.

İki ölkə arasında parlamentlərarası münasibətlərə toxunan Milli Məclisin Sədri ikitərəfli əlaqələrin inkişafında qanunverici orqanların özünəməxsus rolunu qeyd edib. Bildirib ki, bu sahədə həm Milli Məclisdə, həm də Federal Məclisdə fəaliyyət göstərən dostluq qruplarının, həmçinin Milli Məclis və Federal Məclis arasında daimi fəaliyyət göstərən ikitərəfli parlamentlərarası komissiyanın işi təqdirəlayiqdir.

Görüşdə Azərbaycanın 44 günlük Vətən müharibəsi və torpaqlarını işğaldan azad etməsi barədə məlumat verən Milli Məclisin Sədri deyib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuzun şücaəti sayəsində ərazilərimizin Ermənistan tərəfindən 30 illik işğalına son qoyulub. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasını öz gücü hesabına təmin edib. Ötən ilin noyabrında Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş naziri tərəfindən imzalanmış üçtərəfli Bəyanatla keçmiş Qarabağ münaqişəsinin tarixə qovuşduğunu bildirən Milli Məclisin Sədri deyib ki, hazırda Cənubi Qafqaz regionunda tamamilə yeni şərait yaranıb. Artıq münaqişə keçmişdə qalıb və Azərbaycan işğaldan azad olunan ərazilərinin bərpasına başlayıb. Milli Məclisin Sədri Ermənistanın işğal altında saxladığı şəhər və kəndlərimizi tamamilə dağıtdığını bildirərək, bu ölkənin hazırda da regionda sülhün və təhlükəsizliyin təmin olunmasına qarşı törətdiyi təxribatlar, xüsusilə minalanmış ərazilərin xəritələrini təqdim etməkdən imtina etməsi haqqında geniş məlumat verib.

Milli Məclisin Sədri qeyd edib ki, cari ilin iyulunda Prezident İlham Əliyevin imzaladığı Fərmana əsasən, Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü müəyyənləşdirilib. Bu fərmana əsasən, iki yeni rayon - Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Zəngəzur dəhlizinin yaradılmasının çox böyük əhəmiyyəti var. Belə ki, bu dəhlizin yaradılması həm regional kommunikasiyaların bərpasına, həm də regionun inkişafına, sülh və təhlükəsizliyin təmin edilməsinə böyük töhfə olacaq.

Sonra görüşdə tərəfləri maraqlandıran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

# Mühəndis-istehkam qoşunlarının bölmələri istismar müddəti başa çatmış minaların utilizasiyasını həyata keçirir

Azərbaycan Ordusunun mühəndis-istehkam qoşunlarının bölmələri istismar müddəti başa çatmış və istifadəyə yararsız olan minaların Seyfəli poliqonunda utilizasiyasını həyata keçirir.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, aparılan partlayış işləri ilə əlaqədar əhalini təşvişə düşməməyə çağırır və bildiririk ki, narahatlığa heç bir əsas yoxdur.

# TAP - ilin təbii qaz layihəsi

Əvvəli 1-ci səh.

Bunlardan birincisi, kəmərin kommersiya səmərəliliyidir. İkinci, üçüncü və dördüncü əsas şərt layihənin icra mümkünlüyü, həmçinin maliyyə baxımından icra mümkünlüyü və texniki layihələndirmədir. Daha bir vacib məsələ kimi tənzimləmə və şəffaflıq götürülüb. Altıncı amil kəmərin təhlükəsizliyi və səmərəli istismarının mümkünlüyüdür. TAP eləcə də digər kəmərlərdən genişləndirmə imkanlarının olduğuna görə fərqlənir. Nəhayət, qiymətləndirmə zamanı ictimai maraqlarla bağlı amillər da nəzərə alınıb. Kəmərin təməli isə 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. TAP Azərbaycan qazını mənzilbaşına keçən ilin son günündə çatdırıb.

Sistem keyfiyyət, sağlamlıq, təhlükəsizlik və ətraf mühitin mühafizəsi üzrə beynəlxalq standartlara uyğun fəaliyyət göstərir. Potensialı onun ötürücülük gücünü iki dəfə artıraraq ildə 20 milyard kubmetrə çatdırmağa imkan verir.

Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən "Cənub qaz dəhlizi" layihəsinin ayrılmaz hissəsi olan bu kəmər Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı TANAP-dan (Trans-Anadolu Qaz Boru Kəməri) qəbul edir. Bu uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir və sonuncu, bir neçə kilometrlik hissəsi İtaliya torpağında quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir.

TAP-ın səhmdarları bunlardır: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz).

Layihənin uğurla tamamlanmasında Azərbaycanın rolu şəksizdir. Bu işdə "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının 2015-ci ildən başlayaraq ildə bir dəfə Bakıda keçirilən iclasları mühüm əhəmiyyət daşıyıb.Yalnız sonuncu - yeddinci toplantı pandemiya ilə bağlı videoformatda keçirilib.

Xatırladaq ki, TAP xətti İtaliyada bitməsinə baxmayaraq, gələcəkdə Azərbaycan qazının Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün də böyük imkanlar yaradır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev bu il oktyabrın 6-da Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalkonun etimadnaməsini qəbul edərkən "Cənub qaz dəhlizi"nin, nəticə etibarı ilə TAP-ın da respektivləri məsələlərinə toxunub. Dövlət başçısı deyib: "Bizim ənənəvi əməkdaşlıq sahələrimiz yaxşı məlumdur və biz böyük nailiyyət əldə etmişik. On il bundan əvvəl bu binada Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa, enerji təhlükəsizliyinə dair Bəyannamə imzalandı. Bu, "Cənub qaz dəhlizi"nin icrası istiqamətində çox mühüm addım idi. Bundan sonra əməli addımlar atıldı və ötən ilin son günündən bu yana biz artıq əməli nəticələri görürük. Azərbaycan qazı artıq Avropa bazarındadır. Əlbəttə ki, bizim böyük layihə olan "Cənub qaz dəhlizi"nin tamamlanması ilə bağlı planlarımız bununla məhdudlaşmır. Biz görürük ki, Avropa İttifaqının bir çox başqa üzvlərinin də təchizatçısı ola bilərik. Biz təchizatımızın coğrafiyasını genişləndirmək üçün Avropa İttifaqı ilə birgə işləməyi planlaşdırırıq - xüsusilə indi, qışda hər kəs görəndə ki, alternativ marşrut baxımından alternativ mənbə məhz enerji təhlükəsizliyidir."

Beləliklə, gələcəkdə TAP enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə və mənbələrin şaxələndirilməsinə daha böyük dəstək verəcək. O, eyni zamanda regionda əməkdaşlıq körpülərini möhkəmləndirəcək, yüksək gəlirlər, firavanlıq, xeyir-bərəkət gətirəcək. Bu kəmər həm biz və layihədə tərəfdaşlıq edən şirkətlər, həm də Azərbaycandan qaz alan və mavi yanacağın istehlakçısı olmaq istəyən bütün ölkələr tərəfindən yüksək dəyərləndirilir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Suqovuşandan Kəlbəcər istiqamətində hərəkət edən mülki avtomobil karvanına atəş açılıb

Oktyabrın 13-ü saat 14:00 radələrində Kəlbəcər rayonu ərazisində mülki infrastrukturun tikintisi məqsədilə Tərtər rayonunun Suqovuşan qəsəbəsindən Kəlbəcər rayonu istiqamətində hərəkət edən və qeyri-hərbi yükləri daşıyan avtomobil karvanı Qozlukörpü yaşayış məntəqəsi yaxınlığında qanunsuz erməni silahlı dəstələri tərəfindən atəşə məruz qalıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, atəş nəticəsində kolonun önündə hərəkət edən Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Polisinin hərbi avtomobil müfəttişliyinin "Niva" markalı avtomobilinin ön, arxa hissəsi, təkəri və hərəkət mexanizmləri zədələnib.

Xoşbəxtlikdən, ölən və yaralanan yoxdur.

Azad olunmuş ərazilərdə mülki infrastrukturun bərpa edilməsi üçün Rusiya sülhməramlılarının müşayiəti ilə hərəkət edən mülki təyinatlı avtomobil karvanının qanunsuz erməni silahlı dəstələri tərəfindən atəşə tutulması yolverilməzdir. Bu insidentin araşdırılması üçün Azərbaycan Respublikasının Qarabağ İqtisadi rayonunun müəyyən hissəsində müvəqqəti olaraq yerləşdirilmiş Rusiya sülhməramlı qüvvələrinin komandanlığına və Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinə müraciət edilib.





# Müzəffər Sərkərdənin qüdrətli Ordusu



## İlham Əliyevdən erməni saxtakarlığına sarsıdıcı zərbə

*Əvvəli 1-ci səh.*

Qoy dünya bu müharibənin təcrübəsindən nəticə çıxarsın. İnsan oğlunun yaradıcı potensialı, kəşfləri - yeni silahların icadına deyil, həyatın gözəlləşdirilməsinə, inkişafa yönələn mövcud problemlərin həllinə, rifahın yüksəldilməsinə həsr olunsun. Azərbaycan bütün nüfuzlu dövlətlərə, təcrübəli hərbi rəhbərlərə belə, Qələbənin sirlərini, onun nümunəsini göstərdi. İndi hamı şanlı qələbəmizdən müəyyən nəticələr çıxarmağa can atır. Azərbaycanın həm 44 günlük Vətən müharibəsində, illərlə davam etmiş hərbi, diplomatik, sosial-iqtisadi, mənəvi hazırlıq prosesində, həm apardığı ildırım sürətli döyüş əməliyyatlarında, həm də müharibə nəticəsində yaranmış yeni reallıqların idarə edilməsi qabiliyyətində hər kəsin öyrənə biləcəyi çox sirli məqamlar oldu. Ölkəmiz hərbi təcrübəsi ilə dünyanı mat qoydu.

Bütün bunlar, həqiqətən, hərb tarixinə yazılan, bu tarixdə əbədiləşən nümunəvi yeniliklərdir, Azərbaycan igidlərinin canı-qanı bahasına yazılmış qəhrəmanlıq salnaməsidir. Bununla belə, hamı istəyir ki, indidən sonra bunlar ancaq tarix kimi xatırlansın, öyrənilsin...

### Tarixi hərbi əməliyyat

Oktyabrın 9-da Hadrut qəsəbəsinin işğaldan azad edilməsinin birinci ildönümü idi. Bu münasibətlə Azərbaycan Prezidenti İlham Əliyev qəsəbəyə səfər etdi. Burada milli-mənəvi varlığımızın, qayıdışımızın nişanəsi kimi yeni məscidin, ərazini işığa bürüyəcək Yeni Hadrut yarımqovşaq stansiyasının təməlini qoydu. Hadrut-Cəbrayıl-Şükürbəyli, Tuğ-Hadrut və Füzuli-Hadrut yollarında aparılan tikinti işləri ilə tanış oldu. Qəsəbənin daxil olduğu Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü və sonra onlarla birlikdə Tuğ kəndinə getdi. Tarixi keçmişimizin böyük bir hissəsini özündə yaşadan kəndin mənzərəsinə, keçmişin ayrı-ayrı nişanələrinə illərdir Tuğdan uzaq düşmüş insanlarla bir yerdə nəzər saldı. Onların xatirələrini dinlədi.

Azərbaycan Prezidentinin azad olunmuş yurdlarımıza bütün səfərləri kimi Hadruta səfəri, Xocavənd rayon ictimaiyyəti qarşısındakı çıxışı da böyük tarixi məna daşıyırdı. Bu görüşlər Hadrutun və ümumən Qarabağın tarixi həyatında yeni dövrün başlanmasının müjdəçisidir. Bunu çıxışında Prezident İlham Əliyev özü də xüsusi qeyd etdi. Ali Baş Komandan Hadrut əməliyyatının Vətən müharibəsindəki xüsusi əhəmiyyətinə toxundu: "Bu əməliyyatın uğurla başa çatması bizə imkan verdi ki, öz hədəfimizə - Qarabağın azad edilməsinə nail olaq. Hadrutun yerləşməsi bu bölgədə strateji nöqteyi-nəzərdən xüsusi əhəmiyyətə malikdir, çünki dağlıq ərazidir. Qəsəbə ətrafında yerləşən təpələr böyük əraziyə nəzarət etməyə imkan verir və Hadrutu götürmək hərbi nöqteyi-nəzərdən çox çətin idi. Eyni zamanda Hadrutu götürməklə bizim gələcək planlarımız üçün yeni imkanlar açıldı. Onu da bildirməliyəm, baxmayaraq ki, müharibə zamanı Ermənistan ordusunda on mindən çox fərari olmuşdur və bəzi yaşayış məntəqələrindən onlar tələm-tələsik qaçaraq çıxmışdılar, amma Hadrutda dirəniş göstərdilər, müqavimət göstərdilər və burada gedən şiddətli döyüşlər bir neçə gün davam etmişdir. Buna baxmayaraq, Azərbaycan əsgəri, zabiti qarşısında onlar öz acizliyini dərk edərək burada da məğlubiyyətə uğradılar".

Ali Baş Komandanın hərbi əməliyyatların gedişi ilə bağlı açıqladığı təfərrüatlardan belə məlum olur ki, Ermənistan rəhbərliyi və silahlı qüvvələri Azərbaycan Ordusunun Cəbrayıldan sonra Hadrut istiqamətində irəliləyəcəyini gözləmirmiş. Onlar ordumuzun Füzuli istiqamətində hərəkətə keçəcəyini zənn edirmişlər. "Çünki hərbi nöqteyi-nəzərdən Hadrutu götürmək doğrudan da çox böyük fədakarlıq və peşəkarlıq tələb edirdi. Biz bu əməliyyatı keçirməklə öz gücümüzü bir daha Ermənistana və bütün dünyaya göstərdik. Göstərdik ki, heç kim və heç nə bizim qabağımızda dura bilməz, nəyin bahasına olursa-olsun, biz bütün torpaqlarımızı azad edəcəyik" - deyə Azərbaycan Prezidenti vurğuladı. Bu tarixi təfərrüat da ölkə başçısının sərkərdəlik məharətini, verdiyi əmrlərin düzgünlüyünü, peşəkar zabitlərimizlə birgə hərbi əməliyyatları zərgər dəqiqliyi ilə idarə etmək istedadını göstərir.

### Ermənilər Hadruta XIX əsrdə İrandan köçürülüb

Hər birimiz ordumuzun Hadrut zəfərindən sonra Ermənistan rəhbərliyinin düşdüyü mənəvi-psixoloji sarsıntını, vəziyyətdən çıxmaq üçün bu ərazi ilə bağlı yaydıqları yalanları yaxşı xatırlayırıq. Onlar müxtəlif dezinformasiyalarla guya Hadrutdan hərbi-taktiki məqsədlə geri çəkildiklərini iddia edir, sonra isə yenidən oralara qayıtmaları barədə rəy yaratmağa çalışırdılar. Prezident İlham Əliyev çıxışında bu məqama da toxundu: "Bütün bu yalanları müşahidə edərək, sadəcə olaraq, təəccüb edirdim. Çünki açıq-aydın idi ki, Hadrut artıq bizdədir. Mən əmr verdim Hadrutda Azərbaycan bayrağı qaldırılsın ki, ermənilərin bu yalanlarına son qoyulsun. Ancaq ondan sonra - Azərbaycan əsgər və zabitləri bizim dövlət bayrağımızı Hadrutda qaldırıb mənə raport verəndən sonra artıq Ermənistan rəsmi təbliğatı etiraf etdi ki, Hadrut Azərbaycan Ordusunun nəzarətindədir. Bu, bir daha onu göstərir ki, Ermənistan təbliğatı istər işğal dövründə, istər müharibə dövründə, istərsə də postmüharibə dövründə yalan üzərində qurulub. Onların tarixi də saxtadır, keçmişi də saxtadır, dövlətçiliyi də saxtadır, mifologiyası da saxtadır. Sadəcə olaraq, dünya erməniliyi yaşadığı ölkələrdə elə bir yalan rəy yaradıb ki, sanki Ermənistan əhalisi əsrlər boyu burada yaşayıb".

Azərbaycan Prezidenti çıxışı zamanı ermənilərin yalanlarını bir daha ifşa etdi. Hadruta ermənilərin XIX əsrdə İrandan köçürüldüklərini və o vaxta qədər bu torpaqlarda bir erməninin də yaşamadığını diqqətə çatdırdı. Qeyd etdi ki, ermənilərin bu torpaqları özləri üçün doğma torpaq saymadıqları Hadrut qəsəbəsinin indiki halından da görünür. Burada demək olar ki, 30 il ərzində heç nə dəyişilməyib. Hərbçilər üçün iki bina və təmir edilmiş bir məktəb istisna olmaqla, qalan bütün binalar necə varmışsa, elə də qalıb: "Yəni kütləvi səfalət hökm sürüb, bir daş daş üstünə qoyulmayıb. Görün yollar, binalar nə gündədir. Bəzi binalarda, ümumiyyətlə, insan necə yaşaya bilər, böyük sualdır. Sual olunur, bəs 30 il ərzində Ermənistan dövləti xarici ermənilərdən milyonlarla pul alıb. Onlar hər il marafon düzəldirdilər, hər il təqribən yüz milyon dollardan çox pul yığılırdı. Onu vurun 30 ilə, görün təxminən nə qədər pul edir".

Azərbaycan Prezidenti İlham Əliyev onu da yada saldı ki, Ermənistanın keçmiş oğru rəhbərləri bu illər ərzində dünyanın zəngin ermənilərini aldadaraq, marafonlar düzəldərək o pulları cəlb edib özləri üçün bildikləri kimi xərcləyiblər. "Onların böyük bir fondu var, adı Hayastandır. Bilməyənlər üçün deyə bilərəm ki, Hayastan, əslində, Ermənistan deməkdir. Bilmirəm nəyə görə ingilis dilində, rus dilində Hayastana Armenia deyirlər, çünki ermənilər özlərini hay adlandırırlar, öz ölkəsini Armenia yox, Hayastan adlandırırlar. Bu tarixçilərin işidir. Mən bunun səbəbini bilirəm, amma yəqin ki, gərək Azərbaycan tarixçiləri də daha dolğun tədqiqatlar aparsınlar. Yəni bu Hayastan fondu dediyim kimi, bəlkə də bir neçə milyard pul yığmışdır. Həmçinin Amerikada yaşayan zəngin ermənilər öz xüsusi fondlarını yaradıblar, öz ailə üzvlərinə aid fondlar yaradıblar. Otuz il ərzində bəlkə də ən azı bir neçə milyard pul yığılıbdır və o pulun taleyi, necə deyərlər, məlum deyil. Çünki azad edilmiş bütün yerlərə baxdıqda, hətta erməni əhalinin yaşadığı yerlərə baxdıqda, orada heç bir inkişafın əsər-əlaməti yoxdur. Görün Şuşa nə gündədir. Onlar Şuşanı bütün dünyaya öz şəhəri kimi qələmə verməyə çalışırdılar, bu gün də çalışırlar. Əgər sənin şəhərindirsə, niyə bu gündədir?!"

Azərbaycan Prezidenti bildirdi ki, təxminən 30 il ərzində Şuşada cəmi iki yeni bina tikilib və onlar da şəxsi evlərdir. Evlərdən biri separatçıların rəhbərlərinə, digəri xaricdə yaşayan başqa bir zəngin erməniyə məxsus olub. "Şuşadakı 17 bulağın 17-si də qurudulub. Yaxşı, bu, sənin şəhərindirsə, niyə bu gündədir?! - deyə ölkə rəhbəri erməni saxtakarlığının, onların bəd əməllərinin, məkrli niyyətlərinin hədd-hüdudunun olmadığını göstərdi.

Neçə əsrlərdir uydurmalarla dolu erməni tarixşünaslığının analoqu yoxdur. Hazırda bu barədə dünya alimləri də öz tədqiqatlarında yazırlar. Çünki erməni xalqının, erməni dövlətçiliyinin tarixinin aparıcı hissəsi faktlara deyil, saxta məlumatlara, miflərə söykənir. İstənilən bir xalq mifləri həqiqət kimi təqdim etməyə cəhd göstərəndə, onları dövlət ideologiyasının sütunlarına çevirəndə, öz uydurulmuş iradlarına görə real tarixi, sənədləşdirilmiş keçmişi saxtalaşdırmağa başlayanda, ən mühümü isə, onlar üzərində gerçək siyasət qurub başqalarına qarşı əsassız iddialarla çıxış edəndə bu, ilk növbədə, bəşəriyyət üçün böyük faciələrə gətirib çıxarır. Uydurmaların yaranması üsulları da onların riyakarlıq diapazonu kimi məhdudiyyətsizdir: hamını aldatmaq, təhrif olunmuş faktlara inandırmaq... İllər əvvələ qədər bu yalanlarla bəlkə də kimlərisə aldatmaq olardı. Amma bu yalanların qarşısına real həqiqətlərlə çıxan Azərbaycanın apardığı haqq davası, effektiv informasiya müharibəsi erməni saxtakarlığının meydanını get-gedə daraltmaqdadır.

### Dini-mənəvi dəyərlərimizə sadiqlik nümunəsi

Hazırda başqa azad yurdlarımız kimi Hadrutun da bərpası və abadlaşdırılmasına hazırlıq gedir. Qəsəbənin baş planı ilkin variantda dövlət rəhbərimizə təqdim edilib. Amma Azərbaycan Prezidentinin bu baş planla bağlı iradları olduğundan, Hadrutu bu plandakından daha gözəl, abad görmək istədiyindən hazırda onun üzərində işləmək lazım gəlir. "Hesab edirəm ki, yaxın 1 ay ərzində bizim memarlar, inşaatçılar yeni plan üzərində işləyəcəklər, təqdim olunacaq və biz onu təsdiq edəcəyik"- deyə dövlət başçısı diqqətə çatdırdı.

Azərbaycan Prezidentinin Hadrutda məscidin təməlini qoyması və burada islam dininə aid abidənin tikintisinə başlanması da böyük mənəvi-tarixi məzmun daşıyan hadisədir. Sovet vaxtında Hadrut qəsəbəsində yaşayanların əksəriyyəti ermənilər olduğundan onlar, təbii ki, burada məscidin inşasına imkan verməzdilər. Digər tərəfdən, sovet rejimi - ateizm dövründə məscid tikmək, ümumiyyətlə, mümkün deyildi. Ona görə də Hadrut qəsəbəsində məscid yox idi. Qəsəbəni azad etdikdən sonra burada məscidin təməlini qoymaqla Azərbaycan dövləti tarixi ədaləti bərpa etdiyi kimi, dini-mənəvi dəyərlərimizə də sədaqətini göstərdi. "Hadrutun tarixi hissəsi yenidən qurulacaq. Artıq binaların təmiri ilə bağlı ilkin görüntülər var və eyni zamanda, qəsəbədə müşahidə olunan bu səliqəsizlik adamı incidir. Qəsəbəni bugündə təsəvvür etmək mümkün deyil. Ona görə biz Hadrutu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik", - dedi dövlət başçımız. Onun sözlərinə görə, qəsəbənin və Xocavənd rayonunun inkişafı ilə bağlı əsas istiqamət kənd təsərrüfatı, xüsusilə bitkiçilik, heyvandarlıq, üzümçülük olacaq. Bura həm də turizm mərkəzinə çevriləcək. Zəngin təbiətindən əlavə tarixi abidələrin, körpülərin, məşhur Azıx mağarasının, Tağlar mağarasının burada yerləşməsi Xocavənd rayonunun turizm üçün önəmini daha da artırır. Azərbaycan Prezidenti Azıx mağarası ilə bağlı ermənilərin cəfəng bir iddiasını da xatırlatdı. Onların hətta Azıx mağarasını da erməniləşdirmək istədiklərini qeyd etdi: "Bunların cəfəngiyyatının dərəcəsinə baxın, onlar bəyan edirdilər ki, Azıx mağarasında ermənilər yaşayıblar. Adam bilmir gülsün, yoxsa neynəsin. Azıx mağarasını aşkarlayan da azərbaycanlı arxeoloqlar olmuşlar. O arxeoloqlar böyük tədqiqat işləri aparmışdılar. Ermənilər, sadəcə olaraq, təbliğat üçün dünyanın bir neçə ölkəsindən alimlər gətirərək burada şou yaradırdılar. Demək olar ki, mağaraya böyük ziyan vurublar".

Bir həqiqəti də qeyd edək ki, Ermənistan o torpaqları nə üçün işğal etdiyini, niyə onillərlə saxladığını, ötən 30 il ərzində bundan nə qazandığını heç kimə doğru-dürüst izah edə bilmir. Çünki Ermənistan cəmiyyətinin bu münaqişədən nə qazandığı özünə də məlum deyil. Əksinə, ağlasığmaz itkiləri var. Ötən əsrin 80-ci illərinin sonunda Qarabağ ermənilərinin separatçı hərəkətləri yenicə başlayanda onların başabəla millətçi "akademikləri" bunu belə əsaslandırmağa çalışırdılar ki, guya Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi regionun iqtisadi inkişafı baxımından daha səmərəli olar. Ermənilərin 30 il ərzində bu torpaqlarımızda yaratdıqları xarabazarlıqlar, qurulu rayonlarımızı, kənd və qəsəbələrimizi tar-mar etmələri, evlərin daşına, mismarına qədər söküb satmaları söhbətin hansı "effektivlikdən" getdiyini aydın göstərir.

30 il ərzində ermənilər bu ərazilərdə heç bir iqtisadi dəyər yarada bilməyiblər. Yaratdıqları viranələrdir. Azərbaycanın vəhşicəsinə dağıdılan əmlakıdır. Vətəndaşlarımızın talan edilmiş mülkiyyətidir. Sivilizasiyadan uzaq ünsürlər kimi bu ərazilərdə qurulu nə varsa, yerləyeksan etmələridir. Onlar bədnam əməllərinin əvəzini ödəməli olacaqlar. O zaman bir daha anlayacaqlar ki, faşizmə məxsus millətçilik nağılları heç kimə xeyir gətirməyib. Bir daha anlayacaqlar ki, nə istədiyini bilməyən, kimlərinsə əlində alətə çevrilən, regionun inkişafını əngəlləyən, özünü çıxılmaz vəziyyətə məhkum edən bir xalqın gələcəyi ola bilməz!

Prezident İlham Əliyev tarixi abidələrlə zəngin olan bu yerlərdə turizm mərkəzləri, hotellər tikmək üçün azərbaycanlı və xarici investorları dəvət etmək istəyini dilə gətirdi. "Dünyada Xocavənd kimi, Hadrut qəsəbəsi kimi gözəl səfalı yerlər çox azdır. Ermənilər Kəlbəcərdəki, Laçındakı və digər yerlərdəki meşələrimizi qırıblar. Kəlbəcər, Laçın, Zəngilan rayonlarında 60 min hektara yaxın meşə sahəsi tamamilə məhv edilib, qırıblar, yandırıblar, Cəbrayılda da, həmçinin amma burada yox. Ona görə burada təbiət demək olar ki, toxunulmaz qalıb. Bir də ki, burada faktiki olaraq əhali yox idi. Hadrutda bəlkə min nəfər yaşayırdı-yaşamırdı. Əhali yox idi. Ona görə bax, bu bölgənin saf təbiətini biz qorumalıyıq. Vətəndaşlar bura qayıtdıqdan sonra, ilk növbədə, bu təbiətin qorunmasına gərək özləri fikir versinlər və əlbəttə, dövlət də öz üzərinə düşən vəzifələri icra edəcək".

Bəli, işğaldan azad olunmuş yurdlarımız artıq özünün yeni tarixinə qədəm qoyur. Bu, Azərbaycan dövlətinin gücü, xalqımızın sülh, rifah, bütün dünyaya xoşbəxtlik arzusu ilə yaradılan inkişaf tarixi olacaq. Böyük dövlət adamlarının həyata keçirdikləri siyasətin fəlsəfəsini, irəli sürdükləri strategiyanın mahiyyətini tam anlamaqdan ötrü bəzən bu barədə mütəmadi oxumaq, ardıcıl təhlillər aparmaq kifayət etmir. Sadəcə zamanın özü adamı elə həqiqətlərlə qarşılaşdırır ki, onlar bütün mətləbləri aydınlığı ilə izah edir. Seçilmiş yolun, atılan addımların, verilmiş qərarların nə qədər düzgün olduğunu, hər incə detalının zərgər dəqiqliyi ilə nəzərə alındığını sübuta yetirir.

Azərbaycan xalqı azad yurdlarımızda əbədi yaşayacaq və bu torpaqları cənnətə çevirəcək!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.44days.info portalının təqdimatı olub







Oktyabrın 13-də Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan **www.44days.info** portalının təqdimatı olub.





AZƏRTAC xəbər verir ki, təqdimatda çıxış edən Heydər Əliyev Fondunun şöbə müdiri Cəmil Əliyev Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Azərbaycanın qürur tarixini yazdığını bildirib. Qeyd edib ki, təqdim olunan səkkiz bölmədən ibarət resurs isə 44 günlük Vətən müharibəsinin salnaməsini Azərbaycan, rus və ingilis dillərində izləyicilərə çatdırır.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətləri, dövlət başçısının müxtəlif beynəlxalq media qurumlarına və xəbər agentliklərinə müsahibələri, tvitləri, videokonfransları, onlayn görüşləri, müxtəlif ölkələrin prezidentləri və rəsmiləri ilə telefon danışıqları, yerli və beynəlxalq qurumların, müxtəlif ölkələrin və təşkilatların nümayəndə heyətləri ilə keçirilən qəbullar, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəsmi açıqlamaları, xarici mediada Vətən müharibəsi ilə bağlı dərc edilən məqalələr, 44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinə qarşı hücumlarla bağlı məlumatlar portalda əksini tapıb.

Belə bir resursun yaradılmasının vacibliyini vurğulayan saytın işçi qrupunun üzvü Şamxal Əbilov deyib: "Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbəyə görə Müzəffər Ali Baş Komandan İlham Əliyevə və qalib Azərbaycan Ordusuna minnətdarlıq edir, şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik".

Təqdimat zamanı bildirilib ki, portalın əsas səhifəsində Vətən müharibəsinin hər günü və Ermənistanın kapitulyasiyasını ifadə edən üçtərəfli Bəyanat yer alıb. Bundan başqa, müharibənin hər günü ayrıca bölmələrdə təqdim edilir, xarici mediada həmin günə aid dərc olunan məqalələr və analitiklərin proqnozları mətn və linklərdə əks olunur.

Portalın "44 günlük müharibəyə gedən yol" bölməsində 2020-ci ilin iyul hadisələri xronoloji ardıcıllıqla təqdim edilib və "Müharibə niyə baş verdi?" başlıqlı təhlil verilib. 2020-ci il iyulun 14-də ordumuza dəstək məqsədilə Bakının mərkəzində keçirilən yürüşün fotoları və xarici mediada bu hadisələrlə bağlı dərc olunan məqalələr mətn və linklərlə təqdim edilib. "Mülki əhaliyə hücum" bölməsində isə Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun cəbhəboyu mövqelərinə intensiv zərbələr endirməklə yanaşı, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Gəncə, Goranboy, Tərtər və cəbhə xəttindən kənarda yerləşən digər şəhər və rayonlara endirdiyi raket zərbələri və artilleriya atəşi nəticəsində mülki əhalimizin öldürülməsi və onlara dəyən ziyanı əks etdirən məqalələr xronoloji ardıcıllıqla yerləşdirilib.

Azərbaycan Ordusunun Vətən müharibəsindəki tarixi Qələbəsi münasibətilə Bakıda keçirilən hərbi paraddan videogörüntülər, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad olunmuş ərazilərə etdiyi səfərlərin xronoloji ardıcıllığı, o cümlədən foto və videomateriallar da sayt izləyicilərinə təqdim edilir.

Bundan əlavə, portalda Qarabağ münaqişəsinin tarixi, hüquqi və siyasi aspektləri, işğal olunan ərazilərdə mədəni irs və təbii sərvətlərimizə qarşı ermənilər tərəfindən törədilmiş cinayətlər, Xocalı soyqırımı ilə bağlı gerçəkləri özündə əks etdirən baza yaradılıb.

# VƏTƏN müharibəsinin möhtəşəm ZƏFƏRİ



# Qalib Komandanın qəhrəman əsgəri

***Birinci Qarabağ müharibəsi məğlubiyyətimizlə bitsə də, bu savaşda Azərbaycanın yüzlərlə vətənpərvər igid oğlu əsl qəhrəmanlıq nümayiş etdirdilər. Onlar hətta bəzən yüngül atıcı silahlarla ağır hərbi texnikalarla təchiz edilmiş düşmənə qarşı illərlə savaşdılar. Göstərdikləri şücaətlə, igidliklə tək romanların, hekayələrin deyil, həm də könüllərin qəhrəmanına çevrildilər.***

***Həmin dövrdə ordunun başında məhz Ali Baş Komandanın olmaması, pərakəndəlik və bəzi qüvvələr arasındakı hərc-mərclik Azərbaycan üçün acı sonluqla nəticələnsə də, qəhrəmanlarımızla hər zaman qürur duyduq, özümüzə örnək seçdik.***

***Həmin qəhrəmanlardan biri də Azərbaycanın Milli Qəhrəmanı, “Azərbaycan bayrağı” ordenli xüsusi təyinatlı İbad Hüseynovdur.***



## Canlı əfsanə, qurdürəkli qəhrəman

Cəsur qəhrəmanımızı hamımız tanıyırıq, igidlikləri haqqında çox eşitmişik... Həyatına həsr edilən “Əsgər”, “Kəşfiyyatçı” sənədli filmləri və “Qorxulu yuxuların qəhrəmanı”, “Xüsusi təyinatlı İbad”, “Xüsusi Təyinatlı İbad - 2” filmləri lentə alınıb. Ağcabədi və Abşeron ərazisindəki, eyni zamanda, Türkiyənin Ankara şəhərində və Kırşəhər vilayətindəki küçələrə, Qaziantep şəhərində parka adı verilib.

İbad Hüseynovun keçdiyi döyüş yolu, göstərdiyi şücaət hər bir vətənpərvər Azərbaycan gənci kimi elə mənim üçün də örnək olmuşdu. Haqqında bilgilər toplayanda, həqiqətləri eşidəndə onun əsl qəhrəman olduğunu müəyyənləşdirmişdim və ona görə də hər zaman haqqında qürurla, fəxrlə danışırdım.

Məhz İbad Hüseynov kimi igidlərimizin bizə aşıladığı Vətən sevgisi, yüksək döyüş ruhu illər sonra İkinci Qarabağ müharibəsindəki Şanlı Qələbəmizi şərtləndirən ən əsas amil oldu. Bizi qələbəyə, Böyük Zəfərə aparan o igidlərdən aldığımız mənəvi ruh idi. Azərbaycan Silahlı Qüvvələrinin ehtiyatda olan zabiti kimi könüllü olaraq yollandığım Vətən müharibəsində də tabeliyimdə olan əsgərləri motivasiya edərkən, onların döyüş ruhunu artırarkən İbad Hüseynovu nümunə göstərirdim. Çünki İbad canlı əfsanə, əsl qəhrəman idi.

Elə Vətən müharibəsi başa çatdıqdan sonra Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 9 dekabr tarixli sərəncamı ilə İbad Mövsüm oğlu Hüseynovun Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi igidliyə görə “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülməsi də bunu təsdiqləyir. Bu, İbadın Birinci Qarabağ müharibəsindəki xidmətlərinə görə verilən yüksək dəyərin göstəricisi idi...

Oktyabrın 9-da isə çox maraqlı və tarixi hadisə yaşandı. Xocavənd rayonunun Hadrut qəsəbəsinin işğaldan azad edilməsinin birinci ildönümündə Ali Baş Komandan Qalib Sərkərdə kimi həmin əraziyə səfər etdi. Tuğ kəndi ilə tanışlıq zamanı Müzəffər Komandanın yanında Milli Qəhrəman İbad Hüseynov addımlayırdı. Bu, bəlkə də xüsusi təyinatlı baş çavuşun həyatına ən dəyərli və yaddaşında silinməz iz buraxan anlar kimi yazıldı.

Mən də savaşçı jurnalist kimi əfsanəvi qəhrəmanla görüşüb ondan yaşadığı bu tarixi günün xoş təəssüratlarını bölüşməsini istədim. Keçdiyi döyüş yolu, göstərdiyi qəhrəmanlıqlarla bağlı çox danışmaq istəməsə də, Ali Baş Komandanla görüşü ilə bağlı çox maraqlı fikirlər səsləndirdi.

*<u>Qısa arayış:</u> 18 oktyabr 1970-ci ildə Qarabağda, Xocavəndin Muğanlı kəndində zəhmətkeş bir ailədə doğulub. Ailədə 8 uşaq olublar: 5 qardaş, 3 bacı.*

*Dağlıq Qarabağda ilk hərbi toqquşmaların başlandığı zaman İbad Hüseynov Rusiyanın Amur şəhərində yerləşən hərbi hissədə sovet ordusunda qulluq edirdi. Burada o, sovet ordusunun Bakıya qoşun yeritdiyini və çoxlu sayda həmyerlilərinin öldürüldüyünü öyrənir və Azərbaycandan olan digər hərbçilərlə birlikdə onların vətənə buraxılması məqsədilə müddətsiz aclıq aksiyasına başlayır. Nəticədə rəhbərlik İbad Hüseynov və aclıq aksiyasında iştirak edən dörd nəfər əsgər yoldaşını 4 ay öncədən tərxis edir.*

*İbad Hüseynov 1990-cı ildə Azərbaycana qayıtdıqdan sonra Xocavənd rayonuna gedir və orada yerli hərbi özünümüdafiə birləşmələri yaratmağa başlayır. Məhz bu dövrdə Dağlıq Qarabağ münaqişəsinin aktiv fazası başlayır. İbad və digər 4 qardaşı Eyvaz, İlyas, Əbülfət və Füzuli Hüseynovlar döyüşlərin ön cəbhəsində idilər. Ailənin böyük oğlu Eyvaz Hüseynovun rəhbərliyi altında könüllü özünümüdafiə dəstələri yaradılmışdı.*

*Döyüş yolu könüllü taborundan başlayan İbad Hüseynov tezliklə kəşfiyyat bölüyünün komandiri kimi yaxın-uzaq ətrafa qəhrəmanlığı ilə səs saldı. Onun gətirdiyi əməliyyat məlumatları düşmən arxasında icra etdiyi əmrlər, göstərdiyi rəşadət artıq düşməni əməlli-başlı narahat etməyə başlamışdı. Hərbi sursat və texnika olmadığından İbad Hüseynov ermənilərin çox sayda silah və təchizatını ələ keçirərək dəstənin silahlanmasında böyük rol oynadı.*

*Bir çox uğurlu əməliyyatlar həyata keçirir və hətta Ermənistanı, bütün dünya ermənilərini 3 gün matəmə qərq edir. “Avo” ləqəbli terrorçu Monte Melkonyanın başını bədənindən ayıraraq düşməni vəlvələyə salır.*

*26 dekabr 1993-cü ildə İbad minaya düşərək ağır yaralanır. Başından, ayaqlarından qəlpə yaraları alır və komaya düşür. Üç ay sonra komadan ayılan İbad illərlə qoltuq ağaclarında gəzməli olur və xəstəxanalarda müalicə alır. Müharibə zamanı aldığı zədəyə görə sağ ayağı və sağ qolu uzun zaman hərəkətsiz qalır. Lakin uşaqlıqdan idmanla məşğul olduğu üçün sağlamlığına qayıda bilir. 9 oktyabr 1994-cü ildə Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə “Azərbaycan Bayrağı” ordeni ilə təltif edilir.*

*9 dekabr 2020-ci ildə isə Prezident İlham Əliyev tərəfindən “Azərbaycanın Milli Qəhrəmanı” adına layiq görülür.*

***Ermənilər də tədricən etiraf edirlər ki, Qarabağın azad olunması Azərbaycanın haqqı idi, çünki Azərbaycanın Prezidenti bu yolda mümkün olan bütün zəruri addımları atdı. Azad olunmuş torpaqların nəhəng tikinti meydanına çevrilməsi də İlham Əliyev zəkasının məhsuludur. Biz İlham Əliyev şəxsində sübut etdik ki, Azərbaycan lideri “dəmir yumruğ”a malik olmaqla yanaşı, həm də qurub-yaradan rəhbər kimi də tarixə düşüb. Belə liderə malik olan xalq, dövlət xariqələr yaratmağa qadirdir. Əgər Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanın memarıdırsa, Prezident İlham Əliyev Qarabağımızı bizlərə qaytarmış və onu laləzara döndərəcək Lider kimi tarixdə əbədi qalacaq.***

## Ali Baş Komandan səmimiyyəti və xoş rəftarı ilə məni məftun etdi

Ali Baş Komandanla görüşün xoş təəssüratlarından öncə İbad Hüseynov Milli Qəhrəman adını almasından söz açır: “Mənə Milli Qəhrəman adının verilməsi yüksək dəyərdir. Cənab Ali Baş Komandana məni qiymətləndirdiyi üçün təşəkkür edirəm. Cənab Prezident sağ olsun ki, məni şərəfləndirdi. Bu adı aldığım üçün çox sevindim. Çünki sevinməyə haqqım var. Mən hər zaman əsgər olmuşam. Bu gün də cənab Prezidentin əsgəriyəm”.

9 oktyabr tarixi İbad Hüseynovun həyatı üçün xüsusi olaraq yazıldı. Doğma yurdu Xocavənd uğrunda gedən döyüşlərdə, keçirdiyi uğurlu əməliyyatlarda göstərdiyi şücaətə görə 1994-cü ilin 9 oktyabrında Ulu Öndərin sərəncamı ilə “Azərbaycan Bayrağı” ordeni ilə təltif edilən qəhrəman 27 ildən sonra həmin tarixdə - oktyabrın 9-da Heydər Əliyevin layiqli varisi, Qarabağı azad edən Ali Baş Komandan İlham Əliyevlə birgə addımlayır. Özü də doğma Xocavənddə...

Bu tarixi anları isə özü belə xatırlayır:

- Dəfələrlə labüd ölümün pəncəsinə atılaraq ən ağır döyüş tapşırıqlarını yerinə yetirdim, heç zaman qorxmadım, həyəcan keçirmədim. Amma etiraf edim ki, bu dəfə çox həyəcanlı idim. Bu həyəcanı illər öncə, toy günümdə Ulu Öndər Heydər Əliyevin mənə şəxsən zəng edib təbrik etdiyi zaman yaşamışdım. İllər sonra oktyabrın 9-da o hissləri yenidən keçirdim, Ali Baş Komandan İlham Əliyevlə Hadrutda baş tutan görüş zamanı...

Oktyabr mənim üçün ən əlamətdar aylardan biridir. Oktyabrın 3-də Ulu Öndərin Prezident səlahiyyətlərinə başladığı ilk gündür. Xocavənd rayonu bu ayda işğal olunub və azad edilib. Həmin gün Ulu Öndərin məni “Azərbaycan Bayrağı” ordeni ilə təltif etdiyi gündür, Azərbaycanın dövlət müstəqilliyini bərpa etdiyi gün - 18 oktyabr tarixi və yenə də mənim doğum günümə təsadüf edir. Və ən nəhayət, 9 oktyabr tarixdə Hadrut qəsəbəsinin işğaldan azad edilməsilə bağlı təşkil edilən dövlət tədbirində ilk dəfə Müzəffər Ali Baş Komandanla canlı təmasda oldum. Onu da etiraf edim ki, elə ilk saniyələrdə həyəcanım dərhal yox oldu. Cənab Prezident sadəliyi, səmimiyyəti və xoş rəftarı ilə sözün əsl mənasında məni məftun etdi. Sanki həmsöhbətim o deyildi - XXI əsr yeni dövr müharibə elminə imza atmış, ən mükəmməl ordunun sərkərdəsi, 44 gün ərzində mümkün olmayanı reallığa çevirməyi bacaran, yeni dünya düzəninə birbaşa təsir göstərən qalib Komandan, bütün dünyanı özü ilə hesablaşmağa məcbur edən yenilməz siyasətçi...

Bu böyük şəxsiyyətlə təmas qurmaq, açığı, böyük məsuliyyət tələb edir. Məni ən çox təəccübləndirən Prezidentin həddən artıq səmimi, duyğusal olmasıdır. Vaxtının çoxunu işğaldan azad edilmiş torpaqlara həsr etməsi onun gözəl Qarabağa vurğunluğundan, sevgisindən irəli gəlir. Hadrut qəsəbəsindən 12 kilometr aralıda yerləşən qədim Tuğ kəndinə səfərimiz zamanı bu kəndi yaxşı tanıması ilə Prezident yenə də hamını təəccübləndirdi.

## İlham Əliyev zəkasının məhsulu

Milli Qəhrəman müzəffər Azərbaycan Ordusunun Vətən müharibəsindəki şanlı Zəfərindən və bu gün Qarabağda həyata keçirilən tikinti-quruculuq, yenidənqurma işlərindən də söz açdı. Onun fikrincə, son dərəcə böyük hərbi-strateji əhəmiyyətə malik Hadrut qəsəbəsinin geri alınması Qarabağın dağlıq ərazisinə və sonda Şuşamızın işğaldan azad olunmasına gətirib çıxardı:

- Bu elə bir fantastik qələbə oldu ki, dünyanın ən aparıcı dövlətlərinin ordu qərargahları hələ uzun illər Azərbaycan təcrübəsinə istinad edəcək və bu müharibə tədqiqat obyektinə çevriləcək. Burada indiyədək mövcud olan elmi-hərbi nəzəriyyələr və təsəvvürlər tamamilə alt-üst oldu. Ermənilər də tədricən etiraf edirlər ki, Qarabağın azad olunması Azərbaycanın haqqı idi, çünki Azərbaycanın Prezidenti bu yolda mümkün olan bütün zəruri addımları atdı. Azad olunmuş torpaqların nəhəng tikinti meydanına çevrilməsi də İlham Əliyev zəkasının məhsuludur. Biz İlham Əliyev şəxsində sübut etdik ki, Azərbaycan lideri “dəmir yumruğ”a malik olmaqla yanaşı, həm də qurub-yaradan rəhbər kimi də tarixə düşüb. Belə liderə malik olan xalq, dövlət xariqələr yaratmağa qadirdir. Əgər Ulu Öndər Heydər Əliyev müasir Azərbaycanın memarıdırsa, Prezident İlham Əliyev Qarabağımızı bizlərə qaytarmış və onu laləzara döndərəcək Lider kimi tarixdə əbədi qalacaq.

Ulu Öndər hər zaman deyirdi ki, biz Qarabağa qayıdacağıq. Bax bugünkü qələbəmiz Ulu Öndərin qoyduğu sağlam bünövrənin üzərində qazanılıb. Bilirəm ki, qələbəni qazandıran rəhbərdir. 44 günlük müharibədə Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, düzgün siyasəti bizə Zəfər qazandırdı. Ali Baş Komandan min ölçdü, bir biçdi, “İrəli” əmrini verdi. Vətənpərvər oğullarımızın canı, qanı bahasına Qarabağ azadlığına qovuşdu.

Həyatda insan üçün qələbədən böyük qürur, fərəh yoxdur. Mən də xoşbəxt insanam ki, heç zaman uduzmamışam, nə əlbəyaxa döyüşlərdə, nə də müharibədə.

Bütün həyatım başdan-başa qələbə olub. Qarabağı azad etdiyimiz 44 günlük müharibədə də günüm ordunun içində keçib, bütün bölgələrdə olmuşam. Şanlı ordumuzun qələbələri ilə qürurlanmışam...

*Heç kimin şübhəsi olmasın ki, ən yaxın zamanda Qarabağımız əvvəlki füsunkar gözəlliyinə çatacaq, daha da inkişaf edərək, sözün əsl mənasında, dünyanın ən böyük, ən gözəl bağına - cənnət bağına çevriləcək. Bütün bu fantastik hərbi, elmi, iqtisadi nailiyyətləri bizlərə bəxş edən isə Müzəffər Ali Baş Komandan, əvəzedilməz lider və dahi siyasətçi İlham Əliyevdir!*

**Rəşad BAXŞƏLİYEV,**
**“Azərbaycan”**

## ZƏFƏR gündəliyi
## 14 oktyabr 2020-ci il

Gecə saat 01:00 radələrində Ermənistan Respublikası tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonu ilə yaxın sərhəd zonasında bir neçə əməliyyat-taktiki ballistik raket kompleksinin start mövqeyində yerləşdirilməsi müşahidə olunur.

Bu ərazidəki raket kompleksləri Azərbaycanın Gəncə, Mingəçevir və digər şəhərlərindəki dinc əhali və infrastruktura doğru hədəflənir.

Oktyabrın 11-də Ermənistan tərəfindən Gəncə şəhərində törədilmiş hərbi cinayətə bənzər növbəti hadisənin təkrarlanmaması və raket hücumunun qarşısının alınması məqsədilə Azərbaycan Ordusu tərəfindən qabaqlayıcı tədbirlər görülür.

❖ ❖ ❖


İlham Əliyev
@azpresident
"Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Ali Baş Komandan İlham Əliyev rəsmi “Twitter” səhifəsində paylaşım edərək xalqa növbəti müjdəli xəbəri verir:

“Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖



Cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində vəziyyət gərgin olaraq qalır.

Ermənistan silahlı qüvvələrinin bölmələri gecə ərzində cəbhənin bəzi istiqamətlərində Azərbaycan Ordusunun mövqelərinə basqın edib və görülən tədbirlər nəticəsində itki verərək geri oturdulur.

Azərbaycan Ordusu tərəfindən həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd “Osa-AKM” ZRK, 1 ədəd PDM-2, 1 ədəd KS-19 zenit topu, 2 ədəd D-30 haubitsa topu, bir neçə avtomobil texnikası məhv edilir və sıradan çıxarılır.

Səhər saatlarından başlayaraq Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi artilleriya atəşinə tutulur. Ordumuz tərəfindən adekvat tədbirlər görülür.

Humanitar atəşkəs rejiminə əməl edən qoşunlarımız bütün cəbhəboyu əməliyyat üstünlüyünü saxlayırlar.

❖ ❖ ❖

Səhər saat 08:36 radələrində düşmən tərəfindən Azərbaycanın işğal olunmuş Kəlbəcər rayonuna yaxın sərhədyanı ərazilərdə növbəti əməliyyat-taktiki ballistik raket kompleksinin start vəziyyətinə gətirildiyi müşahidə edilir.

Mülki insanlar arasında tələfata səbəb olmaq, mülki infrastruktura xələl yetirmək məqsədilə operativ-taktiki raketlər Gəncə, Mingəçevir və ölkəmizin digər şəhərlərinə doğru hədəflənmişdi. Legitim hərbi hədəf kimi start vəziyyətində olan raketlər qabaqlayıcı dəqiq zərbə ilə sıradan çıxarılır.

❖ ❖ ❖



Günorta saatlarında cəbhənin Füzuli rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus PUA bölmələrimiz tərəfindən məhv edilir.

❖ ❖ ❖

Hərbi İnformasiya Mərkəzində brifinq keçirilir. Azərbaycan Hərbi Hava Qüvvələrinin qərargah rəisi, general-mayor İkram Əliyev mülki əhalini hədəfə alan Ermənistan silahlı qüvvələrinə məxsus operativ-taktiki komplekslərin taktiki xüsusiyyətləri və onların imkanları barədə məlumat verir.

Qeyd edilir ki, 9K72 operativ-taktiki raket kompleksinin (OTZK) 8K14 raketi ilə birgə canlı qüvvəni, idarəetmə məntəqələrini, aerodromları və digər əsas obyektləri məhv etmək üçün təyin olunur. Bu kompleks silahlanmaya 1967-ci ildə qəbul edilib. Raketin atəş məsafəsi 50-300 kilometr, maksimal uzaqlığa uçma vaxtı 5 dəqiqə, start çəkisi 5862 kiloqram, doldurulmamış raketin çəkisi isə 2076 kiloqramdır. Uzunluğu 11 metr 164 santimetrdir. Korpusunun diametri 880 millimetrdir. Kompleksin ümumi çəkisi 37 ton, döyüş heyəti 8 nəfərdən ibarətdir.



Əgər bu raket atılsaydı, o, hətta Bakının da ətrafına düşə bilərdi. Yəni bu sistemlər Dağlıq Qarabağ ərazisinə keçsəydi, həmin sistemlərin atəş məsafəsi Bakıdan da uzağı hədəfləyərdi.

Brifinqdə o da vurğulanıb ki, gecə saat 01 radələrində iki ədəd və səhər 08:30 radələrində bir ədəd olmaqla, ümumilikdə, üç ədəd “Elbrus” ballistik raket qurğusu raketləri ilə birlikdə ordumuz tərəfindən aşkarlanaraq məhv edilib.

### Düşmənə aid məhv edilən «Elbrus» və «Toçka-U» operativ-taktiki ballistik raket qurğularının məhv edilmə rayonları



# Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində şəhid Səxavət Abbasovun anım mərasimi keçirilib



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində torpaqlarımızın işğaldan azad olunması uğrunda canlarını fəda edən şəhidlərin ruhlarına ehtiram məqsədilə "Şəhidlər ölməz - Vətən bölünməz!" tədbirlər silsiləsi çərçivəsində növbəti anım mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, şəhid Səxavət Abbasovun xatirəsinə həsr olunan mərasimdə şəhidin ailə üzvləri, dostları, döyüş yoldaşları, Müdafiə Nazirliyinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla anılıb, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Anım mərasimində çıxış edənlər şəhidin şərəfli döyüş yolundan danışıblar. Şəhid Səxavət Abbasova həsr olunmuş videoçarx nümayiş etdirilib.

Şəhidin ailəsi onlara göstərilən diqqət və qayğıya, eləcə də övladlarının xatirəsi uca tutulduğuna görə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

Sonda şəhidin bir vaxtlar təhsil aldığı Xırdalan şəhərindəki 1 nömrəli orta məktəbin şagirdləri Vətənə, qəhrəmanlığa aid şeirlər söyləyiblər. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi tərənnüm edən musiqilər ifa ediblər.

# UNESCO-nun sessiyasında Qoşulmama Hərəkatının qurum yanındakı qrupunun bəyanatı təqdim olunub

"Qoşulmama Hərəkatı (QH) yarandığı gündən Bandunq prinsiplərinə uyğun olaraq beynəlxalq sülhün və təhlükəsizliyin möhkəmləndirilməsində əsas rol oynayır. Beynəlxalq sistemin bu gün üzləşdiyi ciddi çətinlikləri nəzərə alaraq, qurumun suveren dövlətlərə qarşı Birtərəfli Məcburi Tədbirlərin tətbiqini qınayır. Qoşulmama Hərəkatı dövlətlərin suverenliyinə, ərazi birliyinə və bütövlüyünə hörmət, daxili işlərə qarışmamaq, xarici işğal altında olan xalqların öz müqəddəratını təyin etmək hüququna riayət etməklə çoxtərəfli münasibətlər naminə müstəmləkə hakimiyyəti, zorakılığın qarşısının alınması, zorakılığın qarşısının alınmasının təşviqi kimi beynəlxalq hüquq, eləcə də BMT Nizamnaməsində təsbit olunan beynəlxalq münasibətlər prinsiplərinin gücləndirilməsini müdafiə etməkdə davam edəcək".

AZƏRTAC xəbər verir ki, bu fikirlər UNESCO-nun İcra Şurasının 212-ci sessiyası çərçivəsində Azərbaycanın qurumdakı daimi nümayəndəsi, səfir Elman Abdullayevin ölkəmizin sədrlik etdiyi Qoşulmama Hərəkatının UNESCO yanındakı qrupunun adından təqdim etdiyi bəyanatda yer alıb.



E.Abdullayev bildirib ki, Qoşulmama Hərəkatının Sədri, Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci il dekabrın 3-4-də COVID-19 pandemiyası ilə əlaqədar təşkil edilmiş BMT Baş Assambleyasının Xüsusi Sessiyası da daxil olmaqla, hərəkat qlobal miqyaslı mühüm tədbirlərin təşəbbüskarı kimi çıxış etdiyi çoxtərəfli əməkdaşlığın tərəfdarıdır. Qoşulmama Hərəkatı UNESCO-nun fəaliyyət sahələrində COVID-19 pandemiyasının mənfi təsirlərini aradan qaldırmaq səylərini alqışlayır.

Hərəkata üzv dövlətlər və digər maraqlı tərəflər təhlükəsiz, keyfiyyətli, səmərəli, təsirli, əlçatan və əlverişli COVID-19 peyvəndlərinin ədalətli, şəffaf, bərabər, səmərəli, universal və vaxtında əldə edilməsini və paylanmasını və beynəlxalq əməkdaşlığı təmin etmək üçün müvafiq tədbirlər görməyə çağırır. Qoşulmama Hərəkatı məktəblərin təhlükəsiz şəkildə yenidən açılması üçün UNESCO və Qlobal Təhsil Koalisiyası tərəfdaşlarının fəaliyyətini yüksək qiymətləndirir. Təşkilat hökumətləri bütün şagirdləri məktəbə qaytarmağa və müəllimləri öyrənmə itkilərini həll etməyə, rəqəmsal texnologiyanın tədrisə tətbiqinə hazırlamağa kömək göstərmək üçün "Missiya: Təhsilin bərpası 2021" çərçivəsində UNESCO-nun qüvvələri birləşdirməsini yüksək qiymətləndirir.

Qoşulmama Hərəkatının üzv dövlətləri Dayanıqlı İnkişaf Məqsədlərinin keyfiyyətli təhsil üzrə 4-cü bəndi və davamlı inkişaf üçün dinc və əhatəli cəmiyyətlərin təşviqinə dair 16-cı bəndi, xüsusilə də zorakılığın qarşısının alınması, cinayətkarlıq və terrorizmə qarşı mübarizə üzrə milli təsisatların möhkəmləndirilməsinə dair 16A bəndinə uyğun gələn UNESCO-nun təhsil vasitəsilə şiddətli ekstremizmin qarşısının alınması istiqamətindəki səylərini alqışlayır.

Qoşulmama Hərəkatı insan hüquqlarının və əsas azadlıqların ciddi şəkildə pozulmasını təşkil edən, bərabər imkanlara mane olan hər cür irqçilik, irqi ayrı-seçkilik, ksenofobiya, birtərəfli məcburiyyət tədbirləri və hər cür dözümsüzlüyü qınadığını bir daha təsdiqləyir.

Vurğulanıb ki, hərəkat 1954-cü il Haaqa Konvensiyasının və protokollarının prinsiplərinə uyğun olaraq, üzv dövlətlərin ərazilərində yerləşən bütün mədəni mülkiyyətin qorunması və silahlı münaqişə vəziyyətində mədəni sərvətlərin işğal olunmuş ərazilərdən çıxarılmasının qarşısını almaq öhdəliyini bir daha təkrarlayır.

Qoşulmama Hərəkatına üzv dövlətlər Mədəni sərvətlərin qorunmasına dair 1970-ci il Konvensiyasının BMT-nin üzv dövlətləri tərəfindən mədəni mülkiyyətin qanunsuz idxalı, ixracı və onun tranzitinin qadağan edilməsi və qarşısının alınması vasitələri haqqında Konvensiyanın müddəalarının yerinə yetirilməməsi problemi ilə əlaqədar ciddi narahatlığını ifadə edir, UNESCO-nun Katibliyini 1970-ci il UNESCO Konvensiyasına və BMT Təhlükəsizlik Şurasının 2199 (2015), 2347 (2017) saylı qətnamələri və Baş Assambleyasının 73/130 saylı qətnaməsinə uyğun olaraq, dövlətlərin milli irsi və kimliyinə qarşı qanunsuz cinayətləri sərt pisləmək üçün onların səsinə qoşulmağa çağırır.

Həmçinin Qoşulmama Hərəkatı UNESCO-nun qeyri-maddi mədəni irsin qorunmasına dair beynəlxalq ictimaiyyətə mühüm töhfəsi olan "Qeyri-maddi mədəni irsin qorunması" haqqındakı Konvensiyasına, eləcə də dövlətlərin nəsildən-nəslə ötürülən, sülhün, tolerantlığın, birgə yaşayışın, insan hüquqlarına hörmətin, xalqların kimliyinin və mədəni müxtəlifliyinin təşviqi vasitəsi kimi mədəni təzahürlərinin etibarlılığını təmin etməyə sadiqliyini bildirir.

Qoşulmama Hərəkatı Ümumdünya Mədəni Müxtəliflik Bəyannaməsi, Fəaliyyət Planı və "Davamlı İnkişaf üzrə 2030 Gündəliyi" çərçivəsində beynəlxalq ictimaiyyətə böyük töhfə olan UNESCO-nun "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyasının əhəmiyyətini bir daha təsdiqləyir.

Təşkilat UNESCO-nu Afrika və Gender Bərabərliyi mövzusunda qlobal prioritetlərini davam etdirməyə və inkişaf etməkdə olan kiçik ada dövlətlərinə üstünlük verməyə çağırır.

Qoşulmama Hərəkatı beynəlxalq ictimaiyyəti İsraili UNESCO konvensiyaları da daxil olmaqla, beynəlxalq qanunlar çərçivəsində öhdəliklərini xatırlatmağa çağırır. Hərəkat işğal altında olan ərəb ərazilərində ədalətin və təhsil və mədəni hüquqlar da daxil olmaqla, əsas hüquqların həyata keçirilməsinə, habelə paytaxtı Şərqi Qüds olan suveren və müstəqil Fələstin dövlətində Fələstin xalqının qanuni milli istəklərinin reallaşdırılmasına çağırışını təkrarlayır.

Diqqətə çatdırılıb ki, Qoşulmama Hərəkatı Haitinin Cənub departamentində 2000-dən çox insanın ölümünə səbəb olan dəhşətli zəlzələdən sonra Haiti xalqı ilə həmrəy olduğunu bildirir. Hərəkat zəlzələdən sonra şagirdlərin təhsillərini davam etdirə bilməsinə uyğun məktəb strukturları təmin etmək üçün UNESCO-nu Haitidə təcili tədbirlər görməyə çağırır.

Sonda Qoşulmama Hərəkatının 60 illiyi münasibətilə Azərbaycan və Serbiya tərəfindən 2021-ci il oktyabrın 11-12-də Belqradda təşkil edilmiş Yüksək Səviyyəli Xatirə Toplantısı alqışlanıb.

## Biz birlikdə güclüyük!

# Koronavirusdan yeganə qorunma vasitəsi peyvənddir

## Mütəxəssislərin fikrincə, üçüncü dozaya ehtiyac var

*Əvvəli 1-ci səh.*

Pandemiyanı marafonla müqayisə etdikdə bəşəriyyətin hazırda harada olduğu barədə verilən suala cavabında baş elmi işçi bildirib: "Ümid edirəm ki, tezliklə marşrutun 60 faizini keçəcəyik. Lakin növbəti gözlənilməz maneəni aşmaq məcburiyyətində qalmağımız da istisna deyil. Tezliklə son xətti keçəcəyimizi söyləmək tez olardı, bu belə deyil. Qarşıda çox müəmmalı məsələlərlə üzləşə bilərik və onların arasında SARS-CoV-2 koronavirusunun yeni variantlarının gözlənilmədən peyda olunması da mümkündür".

O, dünyanın müxtəlif ölkələrində və bölgələrində əhalinin COVID-19 əleyhinə vaksinasiya ilə əhatə edilməsindəki əhəmiyyətli fərqi nəzərə çatdırıb. Bəzi dövlətlərdə əhalinin 70-80 faizi peyvənd olunub, Afrikada isə vaksinasiya səviyyəsi 4 faizə də çatmır. O deyib: "Bu vəziyyətlə nə qədər çox barışsaq, koronavirusun yeni variantlarının əmələ gəlməsi riski bir o qədər yüksək olacaq".

Qeyd edək ki, bu ilin fevralından Azərbaycanda vaksinasiya prosesi uğurla həyata keçirilir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ölkəmizdəki nümayəndəliyinin rəhbəri Hande Harmancı Avropa İttifaqı və ÜST-ün COVID-19-a yoluxmuş ağır xəstələrin müalicəsində istifadə olunması üçün Səhiyyə Nazirliyinə tibbi ləvazimatların təhvil verilməsi ilə bağlı keçirilən tədbir çərçivəsində jurnalistlərə müsahibəsində Azərbaycanda ikinci doza vaksin qəbul edən insanların sayının 40 faizi keçdiyini deyib: "Bütün bunların nəticəsində hazırda Azərbaycanda sərt qapanmalar tətbiq olunmur. Azərbaycan Avropada virusa yoluxma sayının sürətlə azaldığı iki ölkədən biridir".

Hande Harmancı diqqətə çatdırıb ki, immun sistemi aşağı olan insanların koronavirus peyvəndini vurdurması vacibdir: "Hansı xəstəliklərə peyvəndin əks göstəriş olduğu ilə bağlı qərar isə Azərbaycan hökumətinə aiddir. Bir çox ölkələrdə bəzi peyvəndlərin 16 yaşa qədər uşaqlara vurulması qəbul olunub. Bununla bağlı araşdırmalar davam edir. Ən vacib olan hər kəsin Səhiyyə Nazirliyinin tövsiyələrinə əməl etməsidir".

Azərbaycanda vaksinasiya prosesinin yüksək səviyyədə həyata keçirildiyini jurnalistlərə Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Petr Mixalko da söyləyib. O bildirib ki, pandemiya yalnız bir ölkəni yox, bütün dünyanı öz çənginə alıb: "Ona görə dünya ölkələrinin bu sahədə əməkdaşlığı çox vacibdir. Azərbaycan hökumətinin bu istiqamətdə göstərdiyi səylər təqdirəlayiqdir. "Şərq tərəfdaşlığı" layihəsi çərçivəsində göstərilən yardım paketi regionun 6 ölkəsini əhatə edir. Azərbaycan da buraya daxildir".

Səhiyyə Nazirliyi Azərbaycanda hazırda 3 milyona yaxın vaksin ehtiyatı olduğunu açıqlayıb. Ölkəmizdə əhalinin vaksinasiyası üçün kifayət qədər peyvənd məntəqəsi yaradıldığı, bu işə yetəri qədər tibb işçisi cəlb olunduğu diqqətə çatdırılıb.

Qeyd edək ki, Türkiyə, Çin, Avstriya, Belçika, Finlandiya, Macarıstan, Rusiya, İspaniya, İsveçrədə də artıq 3-cü gücləndirici doza vaksinasiyaya start verilib. Azərbaycan Səhiyyə Nazirliyi də son elmi-tədqiqatların nəticələrini və COVID-19 virusunun mutasiyaya uğramasını nəzərə alaraq, hər 2 doza vaksin almış risk qrupuna daxil olan vətəndaşları, xroniki xəstəliyi olanları, bütün tibb işçilərini və yaşı 50-dən yuxarı olan əhalini üçüncü doza (buster doza) ilə peyvəndlənməyə çağırıb.

TƏBİB-in infeksion xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev deyib: "Yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı qoruyuculuq yaratmaq üçün iki doza vaksin vurulur. Bundan sonra hər vaksinin nəticələrinə görə bədəndə müəyyən qədər qoruyuculuq yaranır. Vaksinlər arasında ən yüksək qoruyuculuğa malik olanı "Pfizer", "Moderna" peyvəndləridir. Bədənimizdə qoruyucu anticisimlər təbii yolla da, yəni xəstəliyi keçirməklə və ya passiv yolla, yəni immunizasiya - peyvəndləmə yolu ilə yaranır. Nəticədə yaranmış anticisimlər bizi ya virusa yoluxmaqdan, ya da xəstəliyi daha da ağır keçirməkdən qoruyur. Peyvənd vurdurmaq heç zaman xəstəliyi keçirməmək demək deyil. Sadəcə vaksin xəstəliyi daha yüngül, asimptomatik keçirməyə kömək edir. Hazırda həmin xəstəlikdən qorunmaq üçün başqa vasitə yoxdur. Koronavirusun spesifik müalicəsi olmadığı müddətdə və pandemiya davam etdiyi dövrdə yeganə qorunma vasitəsi peyvəndləmədir".

Vasif Əliyev diqqətə çatdırıb ki, iki doza vaksindən müəyyən müddət keçəndən sonra bədənimizdəki anticisimlər neqativləşməyə doğru gedir, yəni azalır: "Daha əvvəl xəstəliyi keçirmiş insan da ikinci, üçüncü dəfə xəstəliyi keçirə bilir. İstər peyvəndləmə, istərsə də təbii yolla yaranmış anticisimlərin miqdarı müəyyən müddət keçəndən sonra elə həddə yaxınlaşır ki, biz virusla təmasda olduğumuz zaman xəstəliyi yenidən keçirə bilərik. Bədənimizdə anticisimlərin miqdarını optimal səviyyədə saxlamaq üçün üçüncü dozaya ehtiyac var. Araşdırmalara görə, üçüncü dozanı ikinci dozadan 6 ay sonra vurdurmaq tövsiyə olunur. Üçüncü doza koronavirusa yoluxmaqdan 11, yoluxma baş verərsə belə, ağırlaşmadan 19 dəfə qoruyur".

İki doza "CoronaVac" peyvəndi qəbul edənlər, üçüncü dozanı istənilən vaksin növündən vurdura bilərlər. "Yaxşı olardı ki, vurdurduğunuz vaksini davam etdirəsiniz. Lakin yeni ştamlar göstərdi ki, "CoronaVac" peyvəndi "Pfizer" və "Moderna"ya nisbətən qoruyuculuq baxımından bir addım geridə qalır. Avropada aparılan tədqiqatlara görə "Pfizer" daha çox qoruyucudur. Lakin pandemiya davam etdiyi müddətdə üçüncü doza ilə işimizi bitmiş hesab etməməliyik. Xəstəliyin yeganə qorunma vasitəsi peyvənddirsə və pandemiya hələ də davam edirsə, gələcəkdə əlavə dozalara ehtiyac yarana bilər.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***







# Cəmiyyətin sosial bəlası

## Milli mentalitetimiz imkan verir ki, bəşəri fəlakətin qarşısını alaq

**Təhlükə yaxınlaşdıqca hər bir canlı onun qarşısını almaq üçün özündə güc və qüvvə toplamağa çalışır. Lakin elə fəlakət və təhlükələr də olur ki, onunla mübarizədə geciksən, səni xilas edə biləcək qüvvənin təsiri itir. Belə olduqda yalnız ölüm deyil, milli və bəşəri fəlakətlər də qaçılmaz olur. Narkomaniyaya aludəçilik də məhz belə faciəni, fəlakəti qarşılamaq qədər təhlükəlidir. O, yalnız özü ilə bir nəfəri aparmır, ailənin, millətin genefondunu da məhv edir.**



Narkomaniya ilə bağlı problemləri daim ictimaiyyətin nəzarəti altında saxlamaq məqsədilə BMT-nin qərarı ilə iyun ayının 26-sı "Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü" elan edilib.

Azərbaycanda da narkomaniyaya qarşı mübarizə sahəsində geniş tədbirlər planı həyata keçirilməkdədir. Bu gün ictimaiyyət də rəsmi qurumlara kömək məqsədilə bu bəla ilə bağlı təbliğat işlərində fəal iştirak edir.

Daxili İşlər Nazirliyinin məlumatına görə, son vaxtlar sosial şəbəkələrdəki yeni yaradılan səhifələrə ayrı-ayrı vətəndaşlar tərəfindən göndərilən məlumatlar əsasında paytaxt Bakının Yasamal, Xətai, Nizami, Nərimanov və Xəzər rayonlarında əməliyyatlar keçirilib və nəticədə xeyli narkotik vasitələr və psixotrop maddələr qanunsuz dövriyyədən çıxarılıb.

Antinarkotik təbliğatı ilə bağlı Daxili İşlər Nazirliyinin ictimaiyyətə müraciətində deyilir ki, narkotik bəlasına qarşı mübarizə Azərbaycanda hüquq-mühafizə orqanları qarşısında duran başlıca vəzifələrdən biridir: "Qanunsuz dövriyyədən çıxarılan narkotiklərin həcminin ilbəil artmasına baxmayaraq, həmin vasitələrin ölkəyə gətirilməsinə edilən cəhdlər, buna mütənasib olaraq narkotik istifadəçilərinin sayı çoxalır. Belə bir vəziyyət isə nəticə etibarı ilə gənclərimizin narkotik aludəçisi olmaq təhlükəsini artırır. Problemlə bağlı mediada tənqidi yazılar dərc olunur, sosial şəbəkələrdə müzakirələr aparılır, müxtəlif fikirlər səsləndirilir. Bu, normal haldır və biz hər kəsin mövqeyinə, eləcə də ictimai rəyə hörmətlə yanaşırıq. Lakin təkcə tənqidlə, yaxud iradlarla iş bitmir. Bu təhlükəni aradan qaldırmaq üçün cəmiyyətin birgə səyləri tələb olunur. Yəni hər kəsin ümumi işə real köməkliyi çox vacibdir. Yalnız bu halda görülən işlər istənilən nəticəni verə bilər".

Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin baş direktoru Orxan Cəfərov mətbuata açıqlamasında bildirib ki, 2020-ci ilin sonuna olan rəsmi məlumata əsasən, ölkəmizdə 33 788 rəsmi qeydiyyatda olan narkotik istifadəçisi var.

Xatırladaq ki, 2019-cu illə müqayisədə 2020-ci ildə 2356 nəfər narkotik istifadəçisi artıb. Bu, hələ qeydiyyata alınandır. Orxan Cəfərovun sözlərinə görə, son zamanlar psixotrop maddələrin istifadəsi də genişlənib.

Rəsmi məlumatlara görə, Azərbaycanda narkotiklər həm ölkəyə gətirilir, həm də ölkə ərazisində təbii yolla bitir və ya kultivasiya vasitəsilə yetişdirilir.

Hüquq-mühafizə orqanları il ərzində on tonlarla narkotik bitkiləri yaş halda toplayaraq məhv edir. Yalnız son günlər polis 15 tonadək kultivasiya yolu ilə becərilən narkotik bitkiləri aşkar edərək dövriyyədən çıxarıb.

### Qanunsuz tranzit narkotik marşrutu

Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının məlumatında deyilir ki, ölkəmizdən bir neçə qanunsuz tranzit narkotik marşrutu keçir. Bunlar İran-Azərbaycan, İran-Azərbaycan-Rusiya-Yaponiya, İran-Azərbaycan-Gürcüstan-Avropa, İran-Azərbaycan-Rusiya-Ukrayna marşrutlarıdır. Ölkədə bu marşrutlarla narkotiklərin daşınması halları aşkar edilib, cinayətkarlardan külli miqdarda narkotik vasitələr götürülüb.

Daha bir fakta diqqət yetirək. Ötən il narkotiklərlə bağlı 3105 nəfər həbs edilib: "Onlardan 16-18 yaşadək 4, 18-25 yaşadək 251, 26-29 yaşadək 526, 30 yaş və ondan yuxarı isə 2308 nəfər təşkil edir. Eyni zamanda hüquq-mühafizə orqanları tərəfindən narkotiklərin qaçaqmalçılıq yolu ilə ölkə ərazisinə gətirilməsi ilə bağlı 198 fakt aşkar edilib. Faktlar üzrə qanunsuz dövriyyədən ümumi çəkisi 2 ton 197,9 kiloqram müxtəlif növ narkotik vasitə, 6 kiloqram 501,4 qram psixotrop maddə, 2 kiloqram 651 qram prekursor çıxarılıb".

Dövlət Komissiyasının məlumatına görə, 2020-ci ilin 9 ayı ərzində narkotiklərlə mübarizə sahəsində hüquq-mühafizə orqanları tərəfindən 4195 fakt aşkar olunub. Onlardan 1507-si narkotik vasitələrin qanunsuz satışı, 2309-u narkotik vasitələrin qanunsuz əldə edilib saxlanılması, 317-si qanunsuz olaraq narkotik xassəli bitkilərin kultivasiya edilməsi, 62-si isə digər cinayətlərlə bağlı olub. Aşkar edilmiş faktlar üzrə qanunsuz dövriyyədən müsadirə olunan 3 ton 806 kiloqram 356,5 qram narkotik vasitələrin və psixotrop maddələrin 2 ton 297 kiloqram 293,6 qramı heroin, 848 kiloqram 997,8 qramı marixuana, 267 kiloqram 258,7 qramı tiryək, 90 kiloqram 377,2 qramı həşiş, 394 qramı kokain, 302 kiloqram 035,2 qramını psixotrop maddələr və digərləri təşkil edib.

Həmçinin müvafiq dövr ərzində Daxili İşlər, Ekologiya və Təbii Sərvətlər nazirliklərinin, Dövlət Sərhəd Xidməti və digər aidiyyəti qurumların nümayəndələrinin iştirakı ilə 2513 hektar sahədən çəkisi 152 ton 791 kiloqram 035,6 qram olan 414 min 644 ədəd yabanı halda bitmiş narkotik tərkibli bitkilər müəyyən olunaraq, qaydaya uyğun məhv edilib.

Azərbaycan gömrükçülərinin də bu sahədə xidmətləri az olmayıb. Onların keçirdikləri əməliyyatlar nəticəsində 108 kq heroin götürülüb.

Ölkədə dövriyyədən çıxarılan narkotiklərin böyük hissəsi heroindir. Ekspertlərin təhlillərinə görə, bütün istiqamətlər üzrə narkotiklərdən istifadə artıb. Həmçinin ölkəyə gətirilərək dövriyyədən çıxarılan narkotiklərin miqdarı da artmaqda davam edir. Belə ki, 2019-cu illə müqayisədə qanunsuz dövriyyədən çıxarılan narkotik vasitə olan heroinin çəkisi 1 ton 483,4 kq, marixuananınkı 163,8 kq, həşişinki 68,9 kq, tiryəkinki 19,7 kq, psixotrop maddələr və digərlərinin çəkisi isə 99,3 kiloqram artıb.

Bu məsələlər üzrə ekspert Emil Maqalov bildirir ki, istənilən narkotik aludəçisi potensial cinayətkara çevrilir: "Narkotik tələbata çevriləndə istifadəçi onu müxtəlif yollarla əldə etməyə çalışır. İstifadəçilərin əksəriyyəti oğurluqla, soyğunçuluqla, cibgirliklə və digər cinayət yolu ilə maliyyə əldə edərək narkotik almağa sərf edir".

Narkotik istifadəçilərinin sayının artmasının digər səbəbi də var. Məsələn, insanların internetə və dünyaya senzurasız daxil olmasıdır. Emil Maqalov əlavə edir: "Uşaqdan tutmuş hər kəsin rahatlıqla yazı və ya videolara girmək imkanı var. Üçüncü səbəb gənclərin asudə vaxtının təşkili problemidir. Bu durumun acı mənzərəsi daha çox rayon və kəndlərdə özünü büruzə verir. Şəhərlərdə asudə vaxtın təşkili ilə bağlı bir qədər nikbin mənzərə mövcuddur".

Ekspert ölkədə narkotik vasitələrin onlayn satışının təşkilindən söz açarkən bildirir ki, qonşu ölkələrlə müqayisədə Azərbaycanın göstəricisi nisbətən yaxşıdır: "...Mən Türkiyə, İran, Gürcüstan və Dağıstanda olmuşam. El dilində desək, bu ölkələrə baxanda şükürlüyük. Çünki Azərbaycanda ailə dəyərləri, mentalitet və digər amillər böyük rol oynayır. Mübarizəni gücləndirməliyik. Bunun bir yolu var: narkotiki yayanlara, satanlara qarşı birgə mübarizə aparılmalıdır. Hansı ki, bütün dünya bununla mübarizə aparır".

Axı biz ən qəddar, amansız, talançı, soyğunçu, vandalizm siyasəti yürüdən ermənilərlə mübarizədə qalib olmağı bacardıq. Bu qalibiyyət isə birliyimizin təntənəsidir! İndi də bir olub bu bəlaya qalib gələk!

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Kapital sabitliyi sevir

## 8 ayda ölkə üzrə əsas kapitala 8,2 milyard manatdan çox vəsait qoyulub

*Əvvəli 1-ci səh.*

Məlumdur ki, iqtisadiyyatın inkişafında kapital qoyuluşu önəmli rol oynayır. Xüsusilə xarici investisiyaların kapital qoyuluşunda əhəmiyyəti daha çoxdur. Bu gün ölkəmiz xarici investisiya qoyuluşunun həcminə görə MDB məkanında öncüllər sırasındadır. Hətta bu sahədə bir sıra Şərqi Avropa ölkələrindən də irəlidəyik. Özü də əvvəllər xarici kapital qoyuluşu neft sənayesinə yönəldilirdisə, indi qeyri-neft sektoruna da investisiya qoyuluşunda yüksək dinamika müşahidə olunur.

Bunun başlıca səbəbi Azərbaycandakı mükəmməl qanunvericilik bazası ilə bağlıdır. Ölkəmizdə bu sahədə qəbul edilən qanunlar yabançı sərmayənin qorunmasına zəmanət verdiyi üçün xarici sərmayədarlarda ölkəmizə güvən yaranıb. İkinci amil isə iqtisadiyyatın dinamik inkişafıdır. Belə olan halda xarici investorlar əmin olurlar ki, yatırdıqları sərmayə qarşılığında qazanc əldə edəcəklər.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, hesabat dövründə xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 2 milyard 924,9 milyon manat vəsait yönəldilib. Bu kapitalın 2 milyard 732 milyon manatı Birləşmiş Krallıq, ABŞ, Türkiyə, Yaponiya, İsveçrə, Norveç, Virgin adaları, Malayziya, Fransa, Rusiya və İran sərmayədarlarına məxsusdur. Düzdür, pandemiyadan əvvəlki illərə nisbətən xarici investisiyanın yatırılması müəyyən qədər azalıb. Ancaq dünyanın indiki çətin şəraitində bu qədər investisiyanın qoyulması da müsbət haldır.

Ümumiyyətlə, cari ilin yanvar-avqust aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 8 milyard 259,4 milyon manat vəsait qoyulub. Daxili kapital qoyuluşunda qeyri-dövlət sektoru üstünlük təşkil edib. Belə ki, hesabat dövründə yatırılan ümumi sərmayənin 37,5 faizi dövlət, 62,5 faizi isə qeyri-dövlət sektorlarına məxsus olub. Bu onu göstərir ki, artıq ölkədə mükəmməl özəl sektor formalaşıb. Bu sektorun investisiya qoymaq imkanlarının yüksək olması həm də iqtisadi inkişafın göstəricisidir. Digər tərəfdən, özəl sektorun imkanlarının yüksək olması ölkənin ümumi iqtisadi inkişafının təmin edilməsində və iqtisadi sabitliyin qorunmasında önəmli rol oynayır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Yeni növ qızıl sikkələr satışa çıxarılıb

**"AzerGold" QSC tərəfindən yeni növ qızıl sikkələr satışa çıxarılıb. Belə ki, ötən il Heydər Əliyev Mərkəzi ilə birgə təşkil edilmiş, Müzəffər Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə ordumuzun Vətən müharibəsində əldə etdiyi şanlı qələbəyə həsr olunan "Qarabağ inciləri" sikkə dizaynı müsabiqəsinin nəticələrinə əsasən, daha iki dizaynda - 5, 10, 20 qramlıq çəkilərdə qızıl sikkə kolleksiyaları istehsal edilərək qızılın dünya birjasındakı cari qiymətinə uyğun minimal marja ilə satışa çıxarılıb.**




Müsabiqədə birinci yerin qalibi seçilmiş layihə əsasında istehsal edilən "Qarabağ inciləri" kolleksiyasının üzərində Qarabağın qədim memarlıq inciləri, tarixi abidələr təsvir olunub. Müsabiqənin "İzləyici rəğbəti" nominasiyası üzrə qalibinin layihəsi əsasında hazırlanan digər sikkə kolleksiyası isə Azərbaycanın musiqi ocağı, mədəniyyət beşiyi olan qədim Şuşa şəhərinə həsr edilib.

Yeni məhsullar cəmiyyətin Bakı şəhəri, Bülbül prospekti 3 ünvanında yerləşən ilk Satış və mübadilə mərkəzində və onlayn satış platforması www.azergold.gift vasitəsi ilə alıcılara təqdim edilir. Əlavə olaraq, ilk dəfə mərkəzdə cəmiyyətin istehsalı olan bütün sikkə və külçələrin qızılın dünya birjasındakı cari qiymətinə uyğun geri alışı - mübadiləsi də təmin edilir.

Xatırladaq ki, "AzerGold" QSC tərəfindən yerli pərakəndə bazarı üçün "Made in Azerbaijan" nişanı ilə Azərbaycan qızılı və gümüşündən hazırlanan sikkələr ilk dəfə 2018-ci ildə istehsal edilmişdir. 3 müxtəlif qızıl və gümüş sikkə kolleksiyalarının üzərində Heydər Əliyev Mərkəzi, Qobustan qayaüstü təsvirləri və Qarabağ xalçasının "Çələbi" naxışının əks olunması Azərbaycanın müasirliyinin, tarix və incəsənətinin təbliğinə yönəlib.

# Qarabağ Dirçəliş Fondu Banklar Assosiasiyası ilə əməkdaşlığa başladı

Azərbaycan Banklar Assosiasiyası və Qarabağ Dirçəliş Fondu arasında işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə dəstək göstərilməsi sahəsində əməkdaşlığa dair Memorandum imzalanıb.




Memorandumu Azərbaycan Banklar Assosiasiyasının Rəyasət Heyətinin sədri Zakir Nuriyev və Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev imzalayıblar.

Əməkdaşlıq Memorandumunun məqsədi işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə dəstək göstərilməsi sahəsində əməkdaşlığın həyata keçirilməsini, eyni zamanda mümkün olduğu halda bankların xidmət şəbəkəsi, məhsulları və digər resurslarının səfərbər olunması vasitəsi ilə QDF-yə köçürülən ianələrin artımını təşviq etməkdir.

Razılaşmaya əsasən, yuxarıda qeyd olunan məqsədlərə nail olmaq üçün Memorandumda QDF və ABA-nın üzvləri arasında əməkdaşlıq mühitinin və kommunikasiyasının yaradılması, mövcud işçi qruplarının təlimatlandırılması ilə yanaşı, ehtiyac olduğu təqdirdə yeni işçi qruplarının yaradılması, QDF-nin işçi qruplarının iclaslarında iştirakının təmin edilməsi, fond tərəfindən təqdim edilən layihələrin ABA üzvlərinə kommunikasiya edilməsinin təşkili, maliyyələşdirilməsi imkanlarının təhlili və araşdırılması kimi məsələlər öz əksini tapıb.

Bu əməkdaşlıq eyni zamanda işğaldan azad edilən ərazilərə qayıdacaq vətəndaşlarımızın güzəştli bank xidmətləri, habelə həmin ərazilərdə fəaliyyət göstərəcək şirkətlərin güzəştli bank xidmətləri ilə təmin edilməsi imkanlarının araşdırılması kimi əhəmiyyətli mövzuları da əhatə edir.

Tərəflər bu əməkdaşlığın işğaldan azad edilən ərazilərin bərpası, yenidən qurulması, sosial-iqtisadi rifahının yaxşılaşdırılması istiqamətində görülən işlərdə əhəmiyyətli rol oynayacağını ifadə ediblər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# AZAL və Airbus aviaşirkətin hava gəmiləri parkının yenilənməsi imkanını müzakirə ediblər

"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin məlumatında bildirilir ki, AZAL-ın prezidenti Cahangir Əsgərov oktyabrın 13-də "Airbus Group"un Şərqi və Şimali Avropada satış üzrə regional direktoru Sergey Nedbaylo ilə görüşüb.



Danışıqlar zamanı tərəflər ikitərəfli təşəbbüslər çərçivəsində çoxillik əməkdaşlığı müzakirə ediblər və şirkətlər arasında qarşılıqlı fəaliyyətin uğurlu təcrübəsini vurğulayıblar.

O cümlədən "Azərbaycan Hava Yolları" aviaşirkətinin mövcud təyyarə parkının 2030-cu ilə qədər yenilənməsi barədə ilkin razılıq əldə edilmişdir. Belə ki, müəyyən edilən dövrdə "Airbus Group" tərəfindən aviaşirkət mövcud Airbus A319 və Airbus A320 təyyarələri əvəzinə yeni nəsil Airbus A320 neo və Airbus A321neo tipli 20-dək təyyarə ilə təchiz edilə bilər.

Tərəflər əvvəlcədən sözügedən müasir hava gəmilərinin alınmasına dair təkliflər hazırlamaq barədə razılığa gəliblər. Bu təkliflər sonradan "Azərbaycan Hava Yolları" QSC-nin Müşahidə Şurasının və Azərbaycan İnvestisiya Holdinqinin müzakirəsinə təqdim olunacaq.

Görüşdə həmçinin mülki aviasiyanın hazırkı vəziyyəti, pandemiyanın təsiri və koronavirus infeksiyasının mülki aviasiya sahəsinə yayılmasının nəticələri barədə fikir mübadiləsi aparılıb.

# Beynəlxalq aləm

## Almaniyaya Belarus vasitəsilə 4300 miqrant daxil olub

Son iki ay ərzində Almaniya ərazisinə keçən qeyri-leqal miqrantların əksəriyyəti İraq, Suriya, Yəmən və İran vətəndaşlarıdır. Onlar, əsasən, Brandenburq, Saksoniya və Meklenburq-Yuxarı Pomeraniya regionlarında sığınacaq tapırlar.



Bu barədə xəbər verən Almaniyanın federal polisi bildirir ki, cari ilin avqust ayından bəri 4300-dən çox miqrant Belarus vasitəsilə qeyri-leqal olaraq Almaniya ərazisinə keçib.

Məlumata görə, bu ilin yanvar-iyul aylarında Belarus marşrutundan cəmi 26 qeyri-leqal istifadə etmişdir. Avqustda onların sayı 474-ə, sentyabrda isə 1914 nəfərə yüksəlmişdir. Oktyabrda bu rəqəmlər yenidən artmışdır. Belarus və Polşa vasitəsilə qanunsuz olaraq Almaniyaya gələn miqrantların sayı 1934 nəfər təşkil edir. Əsasən Brandenburqda miqrantların qəbulu üzrə mərkəzlər sürətlə dolur. Regionun müxtəlif şəhərlərində 2600 qaçqın sığınacaq tapmışdır. 3500 nəfərə hesablanmış mərkəzlərdə yeni qurulan çadırlar sayəsində təcili olaraq yerlərin sayı 4600-a çatdırılmışdır və bu da son deyil. Koronavirus pandemiyası vəziyyəti bir az da ağırlaşdırıb. Lakin qeyri-leqal miqrasiyanın qarşısını almaq üçün hələ ki lazımi səylər göstərmək mümkün olmur. Bu barədə Əcnəbilərin İşləri üzrə Mərkəzi İdarənin başçısı Olaf Yansen məlumat verir.

Xatırladaq ki, Avropa İttifaqı tərəfindən Belarusa qarşı sanksiyaların sərtləşdirilməsinə cavab olaraq may ayında Belarus Prezidenti Aleksandr Lukaşenko bildirmişdi ki, bundan sonra onun ölkəsi Polşaya və Baltiya ölkələrinə getməyə cəhd edən miqrantların qarşısını almayacaq.

Aİ-nin bəzi ölkələri A.Lukaşenkonu böhranlı regionlardan miqrantları mütəşəkkil formada Avropa İttifaqının xarici sərhədinə göndərməkdə ittiham etmişdir. Polşa, Latviya və Litva sərhəd nəzarətini gücləndirmişdir. Buna baxmayaraq, minlərlə qeyri-leqal miqrant müxtəlif vasitələrlə, o cümlədən qaçaqmalçıların köməyi ilə Avropa ərazisinə keçməkdə davam edir.

## Kanada 40 min əfqanıstanlı qaçqını qəbul edəcək

Kanada hökuməti ABŞ-ın və digər ölkələrin Əfqanıstandan təxliyə etdiyi 40 min yerli sakini qəbul etmək niyyətindədir. Bu barədə həmin ölkənin Baş naziri Castin Trüdo məlumat verib. O deyib: "Kanada 40 min əfqan qaçqınını qəbul edəcək və biz digər dövlətləri qaçqınların təhlükəsiz köçürülməsi üzrə öz səylərini aktivləşdirməyə çağırırıq".

Trüdo həmçinin bildirib ki, Ottava Qərb ölkələrinin hərbi kampaniyası zamanı kanadalı hərbi qulluqçulara kömək etmiş əfqanlar və onların ailə üzvləri ilə yanaşı, həm də statusları Kanadanın humanitar proqramlarına uyğun gələn əfqanıstanlıları qəbul edəcək.

Xatırladaq ki, bir müddət əvvəl Kanadanın immiqrasiya, qaçqınlar və vətəndaşlıq məsələləri üzrə naziri Marko Mendiçino bildirmişdir ki, Ottava 5 minə yaxın əfqan qaçqınına sığınacaq verəcək. Kanada özü Əfqanıstandan 3700 nəferi, o cümlədən Kanada vətəndaşlarını və qaçqınları təxliyə etmişdir.



## Türkiyə Yunanıstan sularından çıxarılmış 25 qaçqını xilas etdi




Türkiyənin sahil mühafizəsi Egey dənizində Yunanıstanın ərazi sularından çıxarılmış 25 qeyri-leqal qaçqını xilas etmişdir. Bu barədə "Anadolu" Agentliyi xəbər verir.

Məlumata görə, bir qrup miqrant Türkiyənin cənub-qərbində Muğla əyalətinin Marmaris rayonu yaxınlığında xilas olunmuşdur.

Bildirilir ki, miqrantları daşıyan köhnə rezin qayıq Bozburun məhəlləsinin Qızılburun yaşayış məntəqəsi sahilləri yaxınlığında aşkar edilmişdir.

Xilas olunanlardan 21-i suriyalı, 3-ü fələstinli, 1-i misirlidir. Onların arasında qadınlar və uşaqlar var. Qaçqınlar Muğladakı Miqrasiya İdarəsinə təhvil verilmişdir.

## Somalidə dəhşətli terror aktları törədilib

Somalidə baş vermiş dəhşətli terror aktlarında həlak olanların sayı 17 nəfərə çatmışdır. "Garowe Online" saytının yaydığı xəbərə görə, paytaxt Moqadişonun şimalında yerləşən Daynil rayonunda təhlükəsizlik qüvvələri əməkdaşlarını daşıyan nəqliyyat vasitəsinin atəşə tutulması nəticəsində 12 nəfər həlak olmuşdur. Bundan sonra paytaxtdakı restoranların birində güclü partlayış törədilmişdir: 5 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.



Hər iki partlayışa görə məsuliyyəti terrorçu "Əş-Şəbab" qruplaşması öz üzərinə götürmüşdür.

Bir müddət əvvəl rəsmi Moqadişo sülhməramlı kontingentin dislokasiyası barədə Afrika İttifaqının təklifini rədd etmişdir.

***Hazırladı:***
***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Şəhid ailələri və müharibə əlillərinə təqdim edilən yaşayış kompleksinə mediatur təşkil edilib





Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Samux rayonunda şəhid ailələri və müharibə əlillərinə təqdim edilən yeni çoxmənzilli yaşayış kompleksinə mediatur təşkil edilib.





KİV nümayəndələri kompleksdə, həmçinin burada Samux və Şəmkir rayonlarının müvafiq kateqoriyalardan olan sakinlərinə təqdim edilən mənzillərdə yaradılmış şəraitlə yaxından tanış olublar.

Jurnalistlərin diqqətinə çatdırılıb ki, Prezident İlham Əliyevin şəhid ailələri və müharibə əlillərinə xüsusi qayğısının növbəti təzahürü kimi onların mənzil və fərdi evlə təminatı proqramı dəfələrlə genişlənib.





Təkcə 2021-ci ildə şəhid ailələri və müharibə əlillərinə 2018-ci ilə nisbətən 5 dəfə çox olmaqla, 3 min mənzil və fərdi evin verilməsi nəzərdə tutulub. Onlardan artıq 1700 mənzil təqdim edilib. Ümumən, ötən dövrdə isə şəhid ailələri və müharibə əlillərinə 11 minə yaxın mənzil və fərdi ev verilib.

Dövlət başçısının 25 yanvar 2021-ci il tarixli Sərəncamı ilə 2021-2025-ci illərdə şəhid ailələrinə və müharibə əlillərinə daha 11 min mənzil və fərdi ev veriləcək.





Samux rayonundakı yeni çoxmənzilli yaşayış kompleksi 9 binadan ibarət olmaqla 200 mənzillidir. Müasir tələblərə uyğun infrastrukturun yaradıldığı komplekdə 144 şagirdlik məktəb, 50 yerlik bağça, klub icma mərkəzi, 2 idman meydançası, tibb məntəqəsi də var. Açıq və qapalı idman meydançaları futbol oyunları, həndbol, eləcə də digər yüngül atletika oyunları üçün nəzərdə tutulub. Kompleksin ərazisində inşa olunan bütün mərkəzlər zəruri avadanlıqlarla təchiz edilib, sakinlərin onlardan rahat istifadəsi üçün hər cür şərait yaradılıb.





# “Azercell” şirkəti “Tokio-2020”nin qaliblərini təbrik etdi

Şirkət beynəlxalq olimpiadada öz qələbəsilə Azərbaycan bayrağını zirvələrdə dalğalandıran olimpiya və paralimpiya medalçılarını dəyərli hədiyyələrlə mükafatlandırdı

**“Tokio-2020” Yay Oyunlarında Azərbaycan Milli Olimpiya və Milli Paralimpiya komandalarının məğrur tərəfdaşı kimi çıxış edən “Azercell” ölkəmiz üçün böyük uğurla nəticələnən bu əhəmiyyətli yarışın medalçılarını təbrik etdi.**



Oktyabr ayının 12-də “Azercell” şirkətinin prezidenti Zərinə Zeynalova, Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə, Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov və Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyevin iştirakı ilə keçirilən görüşə “Tokio-2020” Olimpiya və Paralimpiya Oyunlarının mükafatçısı olan idmançılar qatılmışdılar. Tədbirdə qonaqları salamlayan “Azercell” şirkətinin prezidenti Z.Zeynalova bildirdi ki, 23 olimpiyaçımızın və paralimpiyaçılarımızın müxtəlif idman növlərində toplam olaraq 26 medal qazanmaları ölkəmiz üçün böyük bir fəxrdir: “Yarışlara qatılan və mükafat alan bütün idmançılarımız, xüsusilə də bu il rekord sayda qızıl medal qazanaraq Azərbaycanın adını 10 lider ölkə sırasına daxil edən paralimpiyaçılarımızla qürur duyur, onları ürəkdən təbrik edir və müvəffəqiyyətlər arzulayıram. “Tokio-2020” çərçivəsində “Azercell”i məğrur tərəfdaş kimi dəvət edən Azərbaycan Milli Olimpiya Komitəsinə və Milli Paralimpiya Komitəsinə əməkdaşlığa görə təşəkkür edirəm”.

Tədbirdə Azərbaycanın Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Azərbaycan Milli Paralimpiya Komitəsinin prezidenti İlqar Rəhimov söz alaraq ölkəmizdə olimpiya və paralimpiya hərəkatlarına olan dəstəyə görə təşəkkürlərini bildirdilər. Ç.Hüseynzadə qeyd etdi ki, Olimpiya və Paralimpiya komandasının “Tokio-2020” Oyunlarındakı iştirakı və yarışların nəticələrinin Azərbaycan, eyni zamanda dünyaya çatdırılmasında ölkənin birnömrəli mobil operatoru olan “Azercell” şirkətinin böyük zəhməti var.

Tədbirdə bütün qalib idmançılara “Azercell Telekom” adından sertifikatlar və dəyərli hədiyyələr təqdim olundu.

Xatırladaq ki, “Tokio-2020” Olimpiya və Paralimpiya Oyunlarında Azərbaycanın Milli Olimpiya yığması 3 gümüş və 4 bürünc medal, Milli Paralimpiya yığması isə 14 qızıl, 1 gümüş və 3 bürünc medal qazanıb. Ümumilikdə, Azərbaycan idmançıları ölkəmizə 14 qızıl, 4 gümüş və 7 bürünc medalla qayıdıblar.

Məlumat üçün bildirək ki, “Azercell” 2004-cü ildə Afinada keçirilən yay oyunlarında Azərbaycanın Milli Olimpiya yığmasının tərəfdaşı olmuşdur. Bundan başqa, “Azercell” 2014-cü ildən etibarən Uşaq Paralimpiya Komitəsinin sponsorudur. Bu komitədə yetişmiş idmançılar ayrı-ayrı illərdə ölkəmizə beynəlxalq turnirlərdə müxtəlif medallar qazandırıblar.


# OXUCULARIN NƏZƏRİNƏ!
# “AZƏRBAYCAN”

*qəzetinə 2021-ci il üçün*
*abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | (012) 440-46-94, (012) 441-19-91 |
| *“Azərpoçt” ASC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *“Qaya” firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *“Kaspi” MMC* | (012) 432-39-55, (012) 510-82-24 |
| *“Region Press” MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *“Səma-M” MMC* | (012) 594-09-59 |
| *“Ziya” LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *“Pressinform” MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *“City press” MMC* | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## Azercell abunəçilərinin nəzərinə

“Azercell Telekom” MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 15.10.2021-ci ildə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# “Məşğulluq marafonu”na qoşulan işəgötürənlərin sayı 545-ə, təqdim etdikləri vakansiya sayı 2957-yə çatdı

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən başladılan “Məşğulluq marafonu”nda iştirak edən işəgötürənlərin sayı artaraq 545-ə çatıb.**

Marafon Vətən müharibəsində yaralanmış qazilərimizin və şəhid ailəsi üzvlərinin məşğulluğuna dəstək məqsədi daşıyır. Bu məqsədlə marafona qoşulan işəgötürənlərin 286-sı dövlət, 259-u isə özəl müəssisələrdir.

Onlar tərəfindən marafona artıq 2957 vakansiya təqdim edilib.




Vakansiyalar üzrə verilən göndərişlər əsasında artıq 866 nəfər (o cümlədən 140 şəhid ailəsi üzvü və 726 qazi) işlə təmin olunub. Hazırda bu kateqoriyalardan olanlara vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

“Məşğulluq marafonu”na qoşulmaq istəyən işəgötürənlər vakansiyaları barədə, işlə təmin olunmaq istəyən şəhid ailəsi üzvləri və Vətən müharibəsində yaralanmış qəhrəmanlarımız isə özləri haqqında məlumatları https://dma.gov.az/layiheler/mesgulluq-marafonu linkinə daxil olmaqla qeyd edə bilərlər.

# Vahid əlaqələndirmə mərkəzlərinə 1700-dən çox şəhid ailəsi üzvü və qazi müraciət edib

**Bu günədək Bakıdakı DOST Mərkəzlərindəki vahid əlaqələndirmə mərkəzlərinə Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibədə xəsarət almış hərbi qulluqçular və müharibə əlillərindən ibarət 1716 şəxs (o cümlədən 142 Çağrı mərkəzi vasitəsilə 187 şəxs) müraciət edib.**

Vahid əlaqələndirmə mərkəzləri Prezident İlham Əliyevin 2021-ci il 25 iyun tarixli Fərmanı ilə yaradılıb. Məqsədi şəhid ailələri və qazilərə əmək, məşğulluq, sosial müdafiə, tibbi-sosial ekspertiza, reabilitasiya, müalicə, müayinə və s. sahələr üzrə xidmətlərin “bir pəncərə”dən, operativ və şəffaf şəkildə, vətəndaş məmnunluğu prinsipi əsasında göstərilməsidir.




İlkin mərhələdə Bakıdakı DOST mərkəzlərində avqustun 23-dən fəaliyyətə başlayan bu mərkəzlərdə 6-sı mərkəzi, 13-ü yerli icra hakimiyyəti orqanı olmaqla 19 quruma aid 26 xidmət göstərilir.

Mərkəzlərə edilən müraciətlərin bölgüsü aşağıdakı kimidir:

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi üzrə 420 müraciət;
- Müdafiə Nazirliyi üzrə 679 müraciət;
- Səhiyyə Nazirliyi üzrə 43 müraciət;
- Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə 81 müraciət;
- Yerli icra hakimiyyəti orqanları üzrə 122 müraciət;
- İcbari Tibbi Sığorta Dövlət Agentliyi üzrə 37 müraciət;
- Dövlət Sığorta Kommersiya Şirkəti üzrə 147 müraciət.
- 142 Çağrı mərkəzi üzrə 187 müraciət.

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi Ağdam rayonu, Mahrızlı kənd 320 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasının satın alınması üçün

## *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Ağdam rayonu, Mahrızlı kənd 320 şagird yerlik tam orta məktəbin tikintisi üzrə layihə-smeta sənədlərinin hazırlanmasına dair açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 15 noyabr 2021-ci il saat 11:00-da dövlət satınalmalarının vahid Portalında (etender.gov.az) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Portal vasitəsilə elektron elanla tanış ola və 100,00 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi bir sıra təhsil müəssisələrində mühəndis-müayinə işlərinin satın alınması üçün

## *açıq tender elan edir*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq bir sıra təhsil müəssisələrində mühəndis-müayinə işlərinin aparılmasına dair açıq tender üsulu ilə elektron satınalma keçirir.

Tender proseduru 16 noyabr 2021-ci il saat 11:00-da dövlət satınalmalarının vahid internet Portalında (etender.gov.az) keçiriləcəkdir.

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün Portal vasitəsilə elektron elanla tanış ola və 100,00 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə iddiaçı qismində qeydiyyatdan keçərək tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

***Tender komissiyası***

## Bakı Şəhər Mənzil-Kommunal Təsərrüfatı Departamenti Bakı şəhəri, Səbail rayonu, 1-ci Həsən Seyidbəyli döngəsi, ev 7 və 9 ünvanlarında yerləşən qəzalı yaşayış və qeyri-yaşayış sahələrinin köçürülməsi ilə əlaqədar daşınmaz əmlakın qiymətləndirilməsinə dair xidmətin göstərilməsinin

## *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan təşkilatlar (+99412) 465-62-59 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 13.10.2021-ci il saat 14:00-dan 27.10.2021-ci il saat 15:00-dək qəbul olunur.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan Texniki Universitetinin rektor müşaviri, professor İlham Pirməmmədova anası

**HAVA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Abşeron rayon Vəkil Bürosunun kollektivi Azərbaycan Respublikası Vəkillər Kollegiyası Rəyasət Heyətinin sədr müavini Pərviz Ələkbərova atası

**SADAY ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“GünayBank” ASC-nin rəhbərliyi və kollektivi bankın 10 saylı Filialının müdiri Seyran Quliyevə qardaşı

**PƏRVİN CƏFƏR OĞLU QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mahmud Məmmədov “GünayBank” ASC-nin 10 saylı Filialının müdiri Seyran Quliyevə qardaşı

**PƏRVİN CƏFƏR OĞLU QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5610
Sifariş 1927
Qiyməti 40 qəpik